

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 18 (860) ▪ 17 may 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Bakıda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib

Mayın 12-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, «Bakı-2017» İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycan bayrağı dövlət himninin sədaları altında stadiona gətirildikdən sonra atletlərin paradı başlayıb. Hər bir komanda stadiona öz ölkəsinin bayrağı altında əlifba sırası ilə daxil olub. Stadiona Müslüm Maqomayevin məşhur «Azərbaycan» mahnısının sədaları altında ev sahibi - Oyunlarda 425 idmançı ilə təmsil olunan Azərbaycan komandası daxil olub. Azərbaycan bayrağını beşqat dünya çempionu Rəfael Ağayev aparıb.

Sonra Azərbaycanın Olimpiya, dünya çempionları və mükafatçıları stadiona İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını gətiriblər. İdmançılar və hakimlər adından taekvandoçu, «Rio-2016» Olimpiya Oyunlarının qızıl mükafatçısı Radik İsayev və boks hakimi, «Afina-2004» Olimpiya Oyunlarının bürünc mükafatçısı Fuad Aslanov and içiblər.

Mərasimdə çıxış edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bildirib ki, biz birliyin və idmanın təntənəsi olan IV İslam Həmrəyliyi Oyunlarını bu axşam fərəh hissi ilə qəbul edirik: «Oyunlara ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Bu gün Azərbaycan bütün İslam aləmini qəbul edir. Dörd qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını səmimi qəlbdən salamlayır, onlara «Xoş gəlmisiniz» deyirəm! Bütün bu uğurlar münasibətilə gözəl Vətənimizin hər bir vətəndaşını təbrik edirəm və minnətdarlığımı bildirirəm. Qoy, Ulu Tanrı Azərbaycanı qorusun!

Əziz dostlar, 50-dən artıq ölkənin nümayəndəsi bu axşam Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimini qeyd edir. Sizin burada olmağınız bizim üçün şərəfdir. Qardaşlarımız və bacılarımız, Azərbaycan Sizi səmimiyyətlə salamlayır. Mən IV Oyunların keçirilməsini Bakıya həvalə etdiyinə görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlığımı bildirmək istəyirəm.

«Bakı-2017» İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir.



*«Bakı-2017» İslam Həmrəyliyi Oyunları və idmanın qüdrəti xalqlarımızı İslamın dostluq, sülh, tolerantlıq və mərhəmət ruhu altında bir araya gətirib*

İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları mənimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla gələcək üçün böyük irsi təmin etdi.

Bu axşam biz İslam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur. Biz minillikləri əhatə edən mədəniyyətə və güclü İslam ənənələrinə malik qədim diyarıq. Eyni zamanda, biz gənc, müasir və sürətlə inkişaf edən ölkəyik. Ötən il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümünü qeyd etdi. Ölkəmizin multikultural tarixi açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsidir. Biz İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərlərini bölüşməkdən fərəhlənirik.

Bu Oyunların qələbə qazanacaq atletlərinin təltif olunacağı medallardan tutmuş möhtəşəm açılış və bağlanış mərasimləri kimi yaradıcı elementləri zəngin mədəniyyətimizi ilhamlandıracaq. Odlar Diyarı Azərbaycan həm də büllur sular ölkəsidir. Bənzərsiz göllərimiz və çaylarımız, şəlalələrimiz və bulaqlarımız, Xəzər dənizimiz əsrlər boyu həyatımızın mənbəyi olub. Ortaq İslam irsimizdə əsas yer tutan və həyat mənbəyi olan bu element Qafqaz dağlarından Xəzər dənizinə qədər ölkəmizin təbii gözəlliyinin və özünəməxsusluğunun mühüm hissəsini formalaşdırır. «Bakı-2017» İslam Həmrəyliyi Oyunlarının rəmzi - su son beş həftə ərzində Xəzərdən başlayan böyük səyahətdə oldu. O, Azərbaycanın bənzərsiz təbiətini dünyaya nümayiş etdirdi, hər kəsə sülh və dostluq müjdəsi gətirərək, insanları ilhamlandırdı.

Əziz dostlar, mən gözəl gənc könüllülərimizin hamısını salamlayıram. Biz sizinlə fəxr edirik. Sizin fədakarlığınız və vurğunluğunuz, xeyirxahlığınız və qətiyyətiniz bu Oyunları mümkün etdi. Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

İslam aləminin idmançıları, sizi burada qonağımız kimi görmək olduqca sevindiricidir. Bütün Azərbaycan sizinlədir və sizə böyük uğurlar arzulayır. Bu, sizin Oyunlarınızdır. Gələn on gün ərzində ölkəmiz sizin eviniz olacaq. Bu axşam mən ölkəmizin bütün nailiyyətlərinə görə qarşınızda fərəh hissi ilə çıxış edirəm. Xalqımızın tərəqqiyə bağlılığı məni ilhamlandırır. Hamımız birgə əldə etdiyimiz nailiyyətlərlə fərəhlənə bilərik. Azərbaycan iki il öncə birinci Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazdı. İndi isə biz dörd qitənin İslam dünyasının insanlarını Bakıda - IV İslam Həmrəyliyi Oyunlarında birləşdiririk. 2017-ci il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan edilib. «Bakı-2017» İslam Həmrəyliyi Oyunları və idmanın qüdrəti xalqlarımızı İslamın dostluq, sülh, tolerantlıq və mərhəmət ruhu altında bir araya gətirib. Gücümüz həmrəylikdədir! Bu ruhlandırıcı mesajı Oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcək.

İslam aləminin atletləri, xanımlar və cənablar, əziz dostlar. «Bakı-2017» İslam Həmrəyliyi Oyunlarına xoş gəlmisiniz! Azərbaycana xoş gəlmisiniz!».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarını açıq elan edib. Daha sonra atəşfəşanlıq başlayıb və gecə səmasında fişənglərin yazdığı «Bakı-2017» sözləri bərq vurub. Əlində mis səhəng tutan qadın səhnəyə daxil olub. Sonra su daşıyan 56 qadın da ona qoşulub. Onlar bir yerdə İslam Həmrəyliyi İdman Federasiyasının 57 üzvünü təmsil ediblər. Qadınlar suyu siniyə töküblər və nəticədə gözəl fəvvarə alınıb. İslam aləmi bununla rəmzi olaraq birləşib. Bu səhnə mərasimi Oyunların proqramında «Birlik» adı ilə təqdim olunub. Stadionda «Harmoniya» adlanan növbəti süjet nümayiş etdirilib. Mina adlı bakılı qız babası ilə səhnəyə çıxıb. Bakının Filarmoniya bağından görüntülər ekrana gəlib. Babası çərpələngin quyruğuna dördüncü zolağı bərkidərək, onu tamamlayıb. Filarmoniya bağında 120 səhnə iştirakçısı, o cümlədən Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 20 üzvü Minaya qoşulub. Minanın hekayəti «Özünəməxsusluq» adlı hissə ilə davam edib.

Xəzər üzərində Ay görünüb, əfsanəvi muğam ustası Alim Qasımovun ecazkar səsi minarənin zirvəsindən ətrafa yayılıb. Bu, azan səsi idi. Mina həmin sədanın təsiri ilə dini dəyərlərin və tolerantlığın möhtəşəm məkanı olan Heydər Məscidinə yollanıb. Əllərində fənər tutan yüzlərlə dindar İslamın qüdrəti ilə buraya gəlib. Bu süjet «İnanc» adı daşıyıb. Stadiondakı ekranda gündəlik həyatın bir hissəsi olan ənənələrə sadiq, İslam dünyasının müxtəlif yaşlarda insanlarını əks etdirən film nümayiş olunub.

Tamaşaçılar Bakı Olimpiya Stadionunun səhnəsində iki minarənin əhatəsində hündürlüyü 9 metr olan böyük göy günbəz görüblər. Kiçikölçülü digər günbəzlər və tağlar incə kəsim naxışlardan ibarət idi və İslam memarlığında tez-tez rast gəlinən bir-biri ilə bağlı həndəsi elementləri nümayiş etdirib. Mərasimin «Ədəbiyyat» bölümü və «Bilik» süjetləri də maraqla qarşılanıb.

Möhtəşəm və bənzərsiz, dərin mənalı açılış mərasimi «Sülh» səhnəsi ilə başa çatıb. IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi Bakı Olimpiya Stadionu və Dənizkənarı Bulvar üzərində möhtəşəm atəşfəşanlıqla bitib.



# Dövlət başçısı qaliblərə medalları təqdim edib

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Bakı İdman Sarayında IV İslam Həmrəyliyi Oyunlarının karate yarışlarının final qarşılaşmalarına baxıblar.

Yarışlarda Azərbaycanı qadın idmançılardan Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq) və Fəridə Abiyeva (61), kişi karateçilərdən isə Firdovsi Fərzəliyev (60 kq), Niyazi Əliyev (67 kq) və Rəfael Ağayev (75 kq) təmsil ediblər. Azərbaycan idmançısı Rəfael Ağayev finalda Pakistan təmsilçisi Qulam Abbas ilə qarşılaşıb. O, rəqibini 4:0 hesabı ilə məğlub edərək birinci yeri tutub. İdmançımız Fəridə Abiyeva (61 kq) isə finalda iranlı Rozita Əlipurkaşkalesadı 3:0 hesabı ilə məğlub edərək «Bakı-2017»nin qalibi olub.

Sonra mükafatlandırma mərasimi keçirilib. Azərbaycan Prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev qaliblərə medalları təqdim ediblər. Qalib idmançıların şərəfinə Azərbaycanın dövlət himni səsləndirilib, dövlət bayrağımız qaldırılıb.



Mayın 15-də IV İslam Həmrəyliyi Oyunlarının Heydər Əliyev adına İdman Sarayında keçirilən cüdo yarışlarının sonuncu günündə komandalar qələbə uğrunda mübarizə aparıblar. Azərbaycanın kişilərdən ibarət milli komandası yarışı qızıl, qadın yığmamız isə gümüş medallarla başa vurublar. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və birinci xanım, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva kişi cüdoçular arasında komanda yarışının final qarşılaşmasına baxıblar.

Milli komandamız gərgin idman mübarizəsi şəraitində keçən həlledici qarşılaşmada Əlcəzair yığmasına 3:2 hesabı ilə qalib gələrək qızıl medal qazanıb. Yarışda Azərbaycanı Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Rüfət İsmayılov (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşanqi Kokauri (+90 kq) təmsil ediblər. Bürünc medallara Türkiyə və Özbəkistan yığmaları layiq görülüblər.

Sonra idmançıların mükafatlandırılması mərasimi keçirilib. Qalib komandaların üzvlərinə medalları dövlətimizin başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim edib.

BU NÖMRƏMİZDƏ

REGİONLARDA SAHİBKARLIĞIN İNKİŞAFI İSTİQAMƏTİNDƏ KOMPLEKS TƏDBİRLƏR GÖRÜLÜR — 2

SON 15 İLDƏ REGİONLAR ÜZRƏ VERGİ DAXİLOLMALARI 16 DƏFƏ ARTIB — 3

MAARİFLƏNDİRMƏ VƏ MƏLUMATLANDIRMA TƏDBİRLƏRİ DAVAM ETDİRİLİR — 4

TİCARƏT FESTİVALI BAŞA ÇATDI — 5

# Regionlarda sahibkarlığın inkişafı istiqamətində kompleks tədbirlər görülür



Regionların inkişafı sahəsində uğurla həyata keçirilmiş dövlət proqramlarında, bu sahədə əlavə tədbirlərlə bağlı prezident sərəncamlarında nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, bölgələrdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Müsahibimiz millət vəkili, Milli Məclisin regional siyasət komitəsinin üzvü Azər Badamovdur.

**- Azər müəllim, «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı»nın icrası bölgələrin inkişafında hansı rolu oynamaqdadır?**

- 2004-cü ildən mərhələli şəkildə icrasına başlanılmış bu dövlət proqramının ölkəmizin dinamik inkişafında müstəsna rolu vardır. Bu illər ərzində dövlət proqramları çərçivəsində 11 min kilometr şəhərlərarası və kənd avtomobil yolları çəkilmiş, kənd təsərrüfatında yeni meliorativ tədbirlər həyata keçirməklə əlavə suvarılan torpaqlar dövriyyəyə buraxılmış, 3 mindən çox təhsil, 600-dən çox tibb müəssisəsi, 40-dan çox Olimpia idman kompleksi, 30-dan çox mədəniyyət müəssisəsi tikilib istifadəyə verilmişdir. 2004-cü ildən bu günə qədər ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes strukturlarına 2 milyard manatdan çox güzəştli kreditlər verilmişdir. Dövlət proqramlarının icrası sayəsində 1 milyondan çox daimi iş yerləri yaradılmış, ölkənin enerji asılılığı aradan qaldırılmış və Azərbaycan enerji ixrac edən ölkəyə çevrilmişdir.

Qeyd olunan Dövlət Proqramı bu gün də uğurla icra olunur. Əvvəlki illərdə yaratdığımız infrastruktur və həyata keçirdiyimiz layihələr bu gün Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsinə və dövlət başçısı tərəfindən bir sıra sərəncamlar imzalanmış, qanunvericilikdə mühüm dəyişikliklər edilmişdir. Dövlət Proqramında müəyyən olunmuş hədəflərin icrası da regionlarda yeni ixrac yönümlü müəssisələrin işə salınmasına şərait yaratmışdır. Kənd təsərrüfatında valyuta gətirəcək yeni sahələr: pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük kimi sahələrə diqqət yönəldilməsi, zeytun və badam plantasiyalarının salınması, yüngül və yeyinti, eləcə də metallurgiya sənayesinin inkişaf etdirilməsi istiqamətində hədəflər müəyyənləşdirilib və uğurla icra edilir. Məhz bunun nəticəsidir ki, dövlət büdcəmizin 47%-i qeyri-neft sektoru ilə formalaşdırılmışdır.

**- Regionların inkişafında həyata keçirilən vergi siyasətinin rolunu necə dəyərləndirərdiniz?**

- Sahibkarlığın inkişafı və biznes mühitinin yaxşılaşdırılması istiqamətində vergi qanunvericiliyində mühüm dəyişikliklər aparılmışdır. Bu tədbirlər sırasında iki il ərzində kiçik sahibkarlıq subyektlərində vergi yoxlamalarının dayandırılması, sahibkarlıq subyektlərinin qısa müddətdə elektron qaydada qeydiyyata alınması, müəyyən fəaliyyət növlərində lisenziyaların və xüsusi razılıqların ləğv edilməsi və ya minimuma endirilməsi, bir sıra əməliyyatların «ASAN xidmət» vasitəsilə həyata keçirilməsi kimi məsələləri qeyd etmək olar. Ümumiyyətlə, vergi orqanı ilə sahibkar arasında münasibətlər yeni müstəviyə keçmişdir və sahibkarlığın inkişafında ölkədə aparılan vergi siyasəti mühüm rol oynayır. Xüsusi qeyd etmək istəyirəm ki, bu gün düzgün məcraya istiqamətlənmiş vergi siyasəti sayəsində ölkədə vergi mədəniyyəti formalaşmaqdadır.

**- Ölkəmizdə sahibkarların ixrac potensialının, qeyri-neft ixracının, ümumiyyətlə, milli ixracın artırılması sahəsində hansı əlavə tədbirlərə ehtiyac var?**

- Milli ixracın artırılması istiqamətində Azərbaycan dövləti bir sıra tədbirlər həyata keçirməklə ixracatçılara daim dəstək verməkdədir. Təbii ki, ixracın artırılması üçün hər şeydən əvvəl ölkədə yüksək keyfiyyətli məhsullar istehsal olunmalı və yalnız bundan sonra onun ixracı istiqamətində tədbirlər görülməlidir. Bildiyiniz kimi, dövlət başçısının tapşırığı ilə Azərbaycanda «Azexport» portalı yaradılmışdır və istehsalçılar həmin portal vasitəsilə öz məhsullarının dünya bazarlarında marketinqini apara bilərlər. Bu sahənin daha da irəli getməsi üçün ölkədə logistika mərkəzlərinin yaradılması istiqamətində işlər sürətləndirilməli və yaxın-uzaq ölkələrdə Azərbaycan məhsullarının satışını təşkil edən yeni belə mərkəzlər yaradılmalıdır. Xarici diplomatik korpuslarda yaradılması nəzərdə tutulan ticarət nümayəndəlikləri də tezliklə fəaliyyətə başlamalıdır. Azərbaycan öz brendi ilə dünya ticarət sərgilərində iştirak etməli və yeni sazişlərin imzalanmasına çalışmalıdır. Hazırda dünyada bazarlar uğrunda mübarizə gedir və biz də həmin mübarizəyə qoşularaq bazarlarımızı genişləndirməklə özümüzə yer eləməliyik.

**- Azərbaycan reallığında bələdiyyələrin rolunu necə görürsünüz? Regionlarda vergi yığımları sahəsində özünüidarəetmə orqanlarının mövcud potensialından səmərəli istifadə üçün hansı addımların atılmasını vacib hecab edirsiniz?**

- Bələdiyyələr vətəndaşlarla birbaşa təmasda olan qurumlardır. Ölkədə özünüidarəetmə orqanlarının fəaliyyəti üçün mükəmməl qanunvericilik bazası yaradılmışdır. Bələdiyyələr normal fəaliyyət göstərmək və cəmiyyətdə rolunu artırmaq üçün öz büdcələrini formalaşdırmalıdırlar. Bələdiyyələrin büdcəsi, əsasən, dörd vergi növü əsasında formalaşır:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxlərdən yığılan əmlak vergisi;
- mədən vergisi;
- bələdiyyə müəssisələrindən gələn gəlirlərdən tutulan mənfəət vergisi.

Son illərdə bələdiyyələrin vergi yığımı ilə əlaqədar qanunvericilikdə mühüm dəyişikliklər olunmuşdur. Qeyd etmək istəyirəm ki, fiziki şəxslərdən tutulan əmlak və torpaq vergilərinin hesablanması qaydalarında edilən dəyişiklik bələdiyyələrin gəlirlərinin artmasında əhəmiyyətli rol oynayır. Bələdiyyə büdcəsinə küçə reklamından, otelçilikdən, sanatoriyalardan, dayanacaqlardan və s. yerlərdən ödənişlər edilir. Bütün bunlara baxmayaraq, bələdiyyə büdcələrinə vergi yığımında müəyyən artımlar müşahidə olunsa da, çox təəssüf ki, bələdiyyələr öz potensialından səmərəli istifadə edə bilmirlər və vergilərin yığılmasında passivlik göstərirlər. Vətəndaşlarda da vergi ödəmək vərdişi yaranmalıdır. Vergi ödəmədən bələdiyyələrdən yüksək xidmət tələb etmək mümkün deyil. Düşünməliyik ki, bələdiyyə büdcəsi əsasən vergilərlə formalaşır və vergi yığa bilməyən bələdiyyə heç bir iş görə bilməz.

Fikrimcə, vergi yığımında bələdiyyələrə əlavə səlahiyyət verilməlidir: ya onlar vergidən yayınan vergi ödəyicilərinə qarşı inzibati tədbir görmək səlahiyyətinə malik olmalı, ya da ümumiyyətlə fiziki şəxslərdən yerli büdcəyə vergilər Vergilər Nazirliyi tərəfindən yığılmalı və bələdiyyə büdcəsinə köçürülməlidir. Belə olan halda, onların büdcələri daha da artar. Büdcəsi yaxşı olan bələdiyyənin isə cəmiyyətdə nüfuzu da yüksək olar.

## Fiziki şəxslərdən tutulan əmlak və torpaq vergilərinin hesablanması qaydalarında edilən dəyişiklik bələdiyyələrin gəlirlərinin artmasında əhəmiyyətli rol oynayır

regionlarda yeni istehsal sahələrinin yaradılmasına əsaslı imkan verir. Regionlarda aqroparkların və sənaye zonalarının yaradılması prosesi uğurla icra olunur. Kənd təsərrüfatında yaddan çıxmış ənənəvi sahələrin dirçəldilməsi prosesi gedir. Yeni ixracyönümlü məhsullar istehsal olunmağa başlanmış və iqtisadiyyatımızın idxaldan azad olunması istiqamətində ciddi addımlar atılmışdır. Düşünürəm ki, 2014-2018-ci illərdə regionların sosial-iqtisadi proqramının uğurla yerinə yetirilməsi Azərbaycanın ixrac yönümlü məhsullar istehsal edərək dünyanın yeni bazarlarına çıxmasına səbəb olacaq.

**- Dövlət Proqramında qeyri-neft sektorunun inkişafı ilə bağlı mühüm hədəflər müəyyən edilib. Bu sektorun hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- 2008-ci ildən dünya iqtisadiyyatında tüğyan edən iqtisadi böhran Azərbaycandan da yan ötmədi. Beynəlxalq bazarlarda neftin qiymətinin kəskin ucuzlaşması və dünya valyutalarında baş verən dəyişikliklər milli valyutamıza da öz təsirini göstərdi. Lakin ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatımızın idxaldan asılılığının aradan qaldırılması və ixracın artırılması istiqamətində görülən mühüm tədbirlər Azərbaycana bütün çətinlikləri qısa zamanda geridə qoymağa imkan yaratmışdır. Ölkədə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində döv-

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Müraciətlərə həssaslıqla yanaşılır

2017-ci ilin aprel ayı ərzində vergi orqanlarına 10.711 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27% çoxdur. Müraciətlərdən 94,4%-i ərizə, 5,5%-i şikayət, 0,1%-i təklif xarakterli olub. Müraciətlərin 37,7%-i müxtəlif arayışların alınması, 35,0 %-i kameral vergi yoxlamaları, 9,9%-i vergi borcları, 2,2%-i vergi qanunvericiliyinin tətbiqi, 1,8%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 2,9%-i səyyar vergi yoxlamaları, 0,5%-i qəbul, 0,3%-i işlə təmin olunma, 0,2%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i operativ vergi nəzarəti tədbirləri, 0,1%-i korrupsiya hüquqpozmaları, 9,3 %-i isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 77%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanlarında ümumilikdə 411 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə uyğun olaraq, aprel ayının 24-də vergilər naziri Fazil Məmmədov Saatlı şəhərində Saatlı, Şirvan, Sabirabad, Hacıqabul, Cəbrayıl rayonlarından olan 33 vətəndaşı qəbul edib.

# Azərbaycanın ixrac coğrafiyası genişlənir

2017-ci ilin yanvar-aprel ayları ərzində ölkəmizin xarici ticarət əməliyyatlarının həcmi 5 milyard 595 milyon dollar təşkil edib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 11,35% çoxdur. Ticarət əməliyyatlarında ixracın həcmi 42%-ə yaxın artaraq 3 milyard 430 milyon dollar təşkil edib. İdxal isə ötən ilin eyni dövrü ilə müqayisədə 16%-dən çox - 2 milyard 164 milyon dollar azalıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən 4 ayda Azərbaycanın ticarət əməliyyatlarında 1 milyard 265 milyon dollardan artıq müsbət saldo yaranıb, bu dövrdə 157 ölkə ilə ticarət əməliyyatları aparılıb. İxracda əsas yeri Avropa İttifaqı ölkələri (48%) tutub, MDB və Asiya regionu ölkələri üzrə də artım müşahidə olunub. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələr sırasında İtaliya, Almaniya, Avstriya, Portuqaliya, Çexiya, Belçika, İsveçrə, Finlandiya, Rusiya, Türkiyə, Ukrayna və Qazaxıstan əsas yer tutur.

Ticarət dövriyyəsində qeyri-neft məhsullarının həcmi əhəmiyyətli dərəcədə çoxalıb. Xarici ölkələrə əsasən kənd təsərrüfatı və sənaye məhsulları ixrac olunub. Son illərdə aqrar sahədə istehsalın həcminin böyüməsi, yeni emal müəssisələrinin yaradılması, sənaye texnologiyaları parklarının və digər sənaye obyektlərinin istifadəyə verilməsi həmin sahələrdə əlavə dəyərin yaranmasına səbəb olub. Respublikamızın ixrac əməliyyatlarının strukturunda meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli yağlar, şəkər, spirtli və spirtsiz içkilər, kimya sənayesi, pambıq məhsulları, metallar və onlardan hazırlanan məmulatlar, digər sənaye malları üstünlük təşkil edir. Dörd ay ərzində ölkəmizdən 1921 çeşiddə mal ixrac olunub.

İxrac dövriyyəsində qeyri-neft məhsullarının həcminin artmasına təşviqedici tədbirlər görülməsi, ixrac missiyalarının təşkili, milli brendimizin dünyada geniş təbliğ olunması və digər faktorlar öz mühüm təsirini göstərir.

2016-cı ilin ötən 4 ayı ilə müqayisədə cari ilin yanvar-aprel aylarında ixrac fəaliyyəti ilə məşğul olan sahibkarların sayı 17 % artaraq 6700-ü ötüb. İqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı «İxrac təşviqinin ödənilməsi qaydası», «İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı» və «İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar» təsdiq edilib. İxrac təşviqi şamil olunan malların siyahısına bal, xurma, nar, qovurulmuş fındıq kimi kənd təsərrüfatı məhsulları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə-tərəvəz, mürəbbə və cemlər, turşular, spirtli içkilər və şərab, mineral sular və şirələr, unlu qənnadı məmulatları, habelə dəri məmulatları, ipək parçalar və xalçalar kimi digər məhsullar daxil edilib. Həmin məhsulların növündən asılı olaraq, sahibkarlara ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizdən 6 faizədək büdcə vəsaitləri hesabına təşviq verilir. Bu qaydaların tətbiqi sahibkarlar tərəfindən böyük maraqla qarşılanıb və nazirliyə bu istiqamətdə 100-ə yaxın müraciət daxil olub. Rusiya, ABŞ, Çin, Belarus və digər ölkələrə ixrac olunmuş kənd təsərrüfatı və sənaye məhsulları üzrə 520 min manatdan çox ixrac təşviqi ödənilib. Hazırda ixrac dinamikası və sahibkarların müraciətləri təhlil olunur və ixrac potensialı yüksək olan digər məhsullar da həmin siyahıya daxil ediləcək.

İqtisadçı Nicat Hacızadənin sözlərinə görə, gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi qaydalarına edilmiş dəyişikliklər sayəsində ixrac-idxal əməliyyatlarında tələb olunan sənədlərin sayı azaldılıb. İxrac missiyasını həyata keçirən sahibkarlardan fitosanitar, keyfiyyət, mənşə və uyğunluq sertifikatlarının tələb olunmasının ləğvi də buna müsbət təsir göstərib. Rəqəmsal Ticarət Qovşağı çərçivəsində ölkəmizdə istehsal olunan məhsullara ixracla bağlı sənədlərin verilməsi elektron qaydada - «bir pəncərə» prinsipi üzrə aparılacaq. İxracatçılar ixrac gömrük bəyannaməsinin göndərilməsini, habelə qeyri-neft məhsullarının ixracı ilə bağlı ixrac təşviqi vəsaitlərinin əldə edilməsini də «bir pəncərə» sistemi vasitəsilə həyata keçirəcəklər. Əsas məqsəd isə milli ixracatçıların xarici bazarlara daha asan və rahat məhsul çıxarmasına imkan yaratmaqdır.




> *İxrac dövriyyəsində qeyri-neft məhsullarının həcminin artmasına təşviqedici tədbirlər görülməsi, ixrac missiyalarının təşkili, milli brendimizin dünyada geniş təbliğ olunması və digər faktorlar öz mühüm təsirini göstərir*

**Elbrus CƏFƏRLİ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Son 15 ildə regionlar üzrə vergi daxilolmaları 16 dəfə artıb



Regionların inkişafı ilə əlaqədar qəbul olunmuş sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan dövlət proqramlarının qəbulu və uğurla həyata keçirilməsi bölgələrdə investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, biznes mühitinin daha da yaxşılaşdırılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə departamentinin baş direktoru Elçin Bəylərovun qəzetimizə müsahibəsinin başlıca mövzusu regionların inkişafının vergi daxilolmalarına təsirinə həsr edilmişdir.

***- Elçin müəllim, son illər dövlət regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirir və bu sahədə böyük dəyişikliklər baş vermişdir. Bəs bu dəyişikliklər regionlardan vergi daxilolmalarında özünü necə göstərir?***

- Regionların inkişaf etdirilməsi ilə bağlı 2004-cü ildən başlanılmış siyasətin davamı olaraq təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasına, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni müəssisələrin və iş yerlərinin yaranmasına, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə səbəb olmuşdur. Dövlət proqramlarının uğurlu icrası nəticəsində bu il respublikanın 33 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırmalıdır.

Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, regionlardan büdcə daxilolmalarının artmasına imkan vermişdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, regionlardakı vergi ödəyicilərinin əksər hissəsinin fəaliyyəti kənd təsərrüfatı ilə əlaqədardır və 1999-cu ildən bu sahənin, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmasına baxmayaraq, 2016-cı ildə vergi daxilolmaları 600,8 milyon manat təşkil etmişdir. Halbuki Dövlət Proqramının qəbulundan əvvəlki 2003-cü ildə bu rəqəm 37,7 milyon manat idi. Beləliklə, son 15 ildə regionlardan vergi daxilolmaları 16 dəfə artmışdır. Burada, necə deyərlər, şərhə ehtiyac yoxdur.

***- Qeyd etdiniz ki, regionlardakı vergi ödəyicilərinin çoxu kənd təsərrüfatı sektorunda fəaliyyət göstərir. Bu sahədə son dövrlər atılan addımlar barədə nə deyə bilərsiniz?***

- Həyata keçirilən aqrar islahatlar, dövlət dəstəyinin əhəmiyyətli dərəcədə gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatında mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsinə, fəallığın yüksəlməsinə səbəb olmuşdur.

Aparılan təhlillər, nüfuzlu beynəlxalq qurumların hesabatları bir daha təsdiq edir ki, hazırda respublikamızda qeyri-neft sektorundan ixracın artım tempi bu sahənin öz inkişaf sürətinə tam uyğundur. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorun daha da inkişaf etdirilməsi məqsədilə investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin, subsidiyaların verilməsinə, kənd təsərrüfatının inkişafının stimullaşdırılmasına şərait yaradan qanunvericilik bazasının formalaşdırılmasına xüsusi diqqət yetirilir.

Ölkəmizin müxtəlif bölgələrində yaradılan sənaye məhəllələrinə vergi güzəştlərinin verilməsi, aqrar parkların yaradılması infrastruktur şəbəkələrinin genişləndirilməsinə, aqrar sahədə məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə və diversifikasiyasına, eləcə də ölkənin xarici ticarət dövriyyəsinin artmasına böyük töhfələr vermişdir. Son illərdə aqrar sektorda rəqabət qabiliyyətli məhsulların istehsalını artırmaq yolu ilə respublikamıza valyuta axınını təmin etmək, qeyri-neft sektorunun inkişafı hesabına bir çox məhsul növləri üzrə idxaldan asılılığı aradan qaldırmaq yolunda mühüm nailiyyətlər əldə olunub. Görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində son illərdə kənd təsərrüfatında iqtisadi inkişaf prosesinin artım tendensiyası müşahidə olunmaqdadır. Regionlarda pambıqçılıq, baramaçılıq, ipəkçiliklə bağlı son dövrlər müşahidə edilən fəallıq, eləcə də qeyri-neft sektorunun ixracı ilə bağlı atılan addımlar öz müsbət nəticələrini verir. 2017-ci ilin birinci rübü ərzində qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz, kənd təsərrüfatı məhsullarının ixracı isə 44 faiz artmışdır. Sahibkarlığın təşviq edilməsi məqsədilə qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilmiş və proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda keçirilmiş qeyri-neft ixracatçılarının respublika müşavirəsində dövlət başçısının regionlarda fəaliyyət göstərən sahibkarlarımızın qarşısında qoyduğu vəzifələrin icrası iqtisadiyyatın şaxələndirilməsi, gələcəkdə davamlı inkişafın qeyri-neft sektoru hesabına təmin edilməsi üçün ölkənin qeyri-neft ixrac potensialının inkişafına mühüm töhfə olacaqdır.

***- 2017-ci ilin birinci rübü ərzində regionlarda fəaliyyət göstərən vergi ödəyiciləri üzrə proqnoz tapşırıqlarının icrası barədə nə deyə bilərsiniz?***

- Regionlarda infrastrukturun inkişafı, yeni iş yerlərinin açılması, ixrac potensialının genişləndirilməsi yalnız bütün vergilərdən azad edilmiş kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyicilərinin deyil, həmin ərazilərdə digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin də iqtisadi aktivliyinə səbəb olmuşdur. 2017-ci ilin birinci rübündə ümumi dövriyyələr ötən ilin müvafiq dövrü ilə müqayisədə 43,1 faiz artmışdır. Pərakəndə ticarət sahəsindən vergi daxilolmaları 6,9 faiz, xidmət sahəsində isə 30,6 faiz artmışdır.

İslahatlar iqtisadi sistemin şəffaflaşmasına, əlverişli biznes mühitinin formalaşmasına, sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına şərait yaratmış, bütün bunların nəticəsində 2017-ci ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları üzrə 20 mindən yuxarı vergi ödəyicisi fəaliyyətini bərpa etmişdir ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,1 dəfə çoxdur. Cari ilin birinci rübündə fəaliyyətini bərpa edən obyektlərin sayında 2 dəfə artım olmuşdur.

> Ölkəmizin müxtəlif bölgələrində yaradılan sənaye məhəllələrinə vergi güzəştlərinin verilməsi, aqrar parkların yaradılması infrastruktur şəbəkələrinin genişləndirilməsinə, aqrar sahədə məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə və diversifikasiyasına, eləcə də ölkənin xarici ticarət dövriyyəsinin artmasına böyük töhfələr vermişdir

2017-ci ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları tərəfindən dövlət büdcəsinə 155,4 milyon manat proqnoza qarşı 176,6 milyon manat vəsait daxil olmaqla proqnoz tapşırığına 113,6 faiz əməl olunmuş, o cümlədən yerli mənbələr üzrə dövlət büdcəsinə 113,8 milyon manat proqnoza qarşı 135,1 milyon manat vəsait daxil olmuş və ya proqnoz tapşırığına 118,8 faiz əməl edilmişdir.

Ərazi vergi orqanlarının əhatə dairəsinə daxil olan bütün rayon və şəhərlər üzrə proqnoz tapşırıqları, o cümlədən dövlət büdcəsindən dotasiya tələb etmədən öz gəlirləri hesabına xərclərinin ödənilməsinin təmin edilməsi nəzərdə tutulmuş 33 rayon (şəhər) üzrə proqnoz tapşırıqları tam icra olunmuşdur.

***- Bu ilin əvvəlinə bir sıra vergi ödəyicilərinin borcları silindi. Regionlar üzrə belə vergi ödəyicilərinin sayı nə qədər olmuşdur?***

- Azərbaycan Respublikasında sahibkarlığın inkişafının stimullaşdırılması, vergi yükünün optimallaşdırılması məqsədilə ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanun sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılması, onların sərəncamında olan vəsaitlərin həcminin artırılması, sahibkarlığın inkişafının stimullaşdırılması və daha əlverişli biznes mühitinin formalaşdırılması üçün əlavə imkanlar yaratmışdır.

Qanuna əsasən, regionlarda qeydiyyatda olan 38.111 vergi ödəyicisinin 1 yanvar 2017-ci il tarixə olan 107 milyon manat borcu silinmişdir ki, bu da vergi ödəyiciləri tərəfindən rəğbətlə qarşılanmış və sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında olan vəsaitlərin həcminin artmasına şərait yaratmışdır. Bundan əlavə, 3285 vergi ödəyicisi tərəfindən maliyyə sanksiyaları üzrə borcların müəyyən faizi ödənilərək, onların daha 4,8 milyon manat borclarının silinməsi də təmin edilmişdir.

***- «Nağdsız hesablaşmalar haqqında» Qanunun icrası ilə bağlı işlər nə yerdədir?***

- Nağdsız əməliyyatların həcminin artması, bankların maliyyə vəziyyətinin yaxşılaşması, pul dövriyyəsinin tənzimlənməsi, onların likvidliyinin və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsi məqsədilə «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir və bu Qanunun tələblərinin pozulmasına görə maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilmişdir.

Təhlillər göstərir ki, hələ də bəzi vergi ödəyiciləri əməliyyatlarını nağd şəkildə aparmaq vərdişindən əl çəkməmişlər və bununla əlaqədar ərazi vergi orqanları tərəfindən maarifləndirmə və izahat işləri davam etdirilməkdədir.

Uzun illər ərzində nağd hesablaşmalara öyrəşən insanlar üçün nağdsız ödənişlərə keçidin bəzi suallar yaratması təbii və başadüşüləndir. Ona görə də dövlət bu məsələdə kifayət qədər təmkin və dözümlülük nümayiş etdirir. Xatırlatmaq yerinə düşər ki, nağdsız ödənişlərin həcminin artırılması ilə bağlı uzun illər müzakirələr aparılmış və hələ 2011-ci ilin noyabr ayında ölkə başçısı Nazirlər Kabinetinin ilin doqquz ayının yekunları ilə bağlı iclasındakı çıxışında bu məsələ ilə bağlı siyasi iradəsini və konkret mövqeyini açıq şəkildə bildirmişdir.

Hazırda dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində maliyyə axınları şəffaf həyata keçirilir və nağdsız ödənişlərin xüsusi çəkisi 60-80 faiz təşkil edir. Bəzi Skandinaviya ölkələri isə hətta bir neçə il əvvəl tezliklə nağd puldan ümumiyyətlə imtina etmək niyyətində olduqlarını bəyan etmişlər.

Sirr deyil ki, nağd hesablaşmaların xüsusi çəkisinin çox olduğu ölkələrdə terrorçuluğun maliyyələşdirilməsi, korrupsiya və rüşvətin geniş vüsət alması bu kimi neqativ hallara qarşı mübarizəni çətinləşdirir. Nağdsız ödənişlərin həcminin artırılması, ilk növbədə, pul dövriyyəsinin tənzimlənməsinə müsbət təsir göstərməklə yanaşı, maliyyə sektorunda kifayət qədər canlanma yaradacaq, vergidən yayınma hallarının azalmasına gətirəcək və təbii ki, həm də vergi daxilolmalarının artmasına birbaşa təsir edəcək.

# Ölkə iqtisadiyyatına xarici sərmayə qoyuluşu artıb

2017-ci ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatına 4 milyard 100 milyon manata yaxın sərmayə qoyulub. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədovun sözlərinə görə, ölkəmizə xarici investisiya qoyuluşunun artmasında dövlət dəstəyi mexanizmləri və stimullaşdırıcı addımlar, o cümlədən vergi-gömrük siyasətinin də mühüm rolu vardır. Son illərdə ölkəmizdə xarici şirkətlərə bir sıra güzəştlər edilib: biznes qeydiyyatı sistemi sadələşdirilib, investisiyalarla bağlı mexanizmlər təkmilləşdirilib, vergi yükü azaldılıb, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb və əlverişli biznes mühiti formalaşdırılıb. Bütün bunlar Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayının artmasına səbəb olub. 2004-2016-cı illər ərzində ölkəmizdə 7 mindən artıq xarici investisiyalı şirkət qeydiyyatdan keçib. Bunlar ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank, sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələri əhatə edir.

Ötən il lisenziyalaşma sahəsində atılan səmərəli addımlar, qeydiyyat sisteminin təkmilləşdirilməsi, yoxlama və icazələrin azaldılması, xarici sərmayəçilərin hüquq və mənafelərinin qorunması ilə bağlı əlavə tədbirlər Azərbaycanda yeni xarici şirkətlərin fəaliyyətə başlamasına səbəb olub. Eləcə də tranzit və logistika əməliyyatlarının səmərəliliyi, yeni fəaliyyətə başlayan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının malların tranziti üzrə bir sıra güzəştli tariflərin tətbiq olunması və tariflərin aşağı salınması xarici şirkətlərin Azərbaycana marağını daha da artırıb. Son 2 ildə xarici sərmayələrdə qeyri-neft sahələrinin xüsusi çəkisi artıb. İnvestisiyalarda regionların payı də əhəmiyyətli dərəcədə yüksəlib, xüsusilə də sənaye və turizm sahələrinə investorların marağı yüksəlib. Ötən il qeyri-neft sənayesində 270-dək yeni müəssisə yaradılıb ki, onların böyük bir hissəsi xarici investisiyalı müəssisələrdir. 2016-cı ilin sonlarından Azərbaycanda tətbiq olunan «Asan viza» sisteminin fəaliyyətə başlaması turizm sektorunda əlavə canlanma yaradıb.

Vergi siyasətinin iqtisadi reallıqların tələblərinə uyğunlaşdırılması xarici sərmayələrin axınına geniş şərait yaradıb. Respublikamızın bir sıra beynəlxalq müqavilələrə qoşulması investisiyaların təşviqi və qorunması, gəlirlər və əmlakla bağlı ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırıb. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərib. Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər. Bu amillər son illərdə qeyri-neft sektorunda fəaliyyətə xarici investisiyaya malik şirkətlərin marağının artmasına səbəb olub. Xarici investisiyalı şirkətlərin maraq göstərdiyi sahələrə sənaye, tikinti və nəqliyyatdan başqa ticarət, turizm və xidmət sahələri də əlavə olunub.

2017-ci ildən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdə əsas istiqamətlərdən biri yerli və xarici biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının genişləndirilməsidir. Bütün bu stimullaşdırıcı addımlar Azərbaycanda qeydiyyatdan keçmiş xarici şirkətlərin daha geniş fəaliyyəti üçün əlverişli imkanlar yaradır.

**E.CƏFƏRLİ**

Xarici sərmayə qoyuluşlarının dinamikası







## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Təhsil haqqının ödənilməsi qaydası

***Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin 3-cü kurs tələbəsiyəm, ödənişli əsaslarla təhsil alıram. Təhsil müəssisəsinə təhsil haqqını nağd qaydada ödəyə bilərəmmi?***

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə əsasən, nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq), ödəniş terminalları ilə və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur.

Həmin qanunun 3.4.8-ci maddəsində isə göstərilir ki, təhsil haqqının ödənilməsi bu qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq, yalnız nağdsız qaydada həyata keçirilməlidir.

**Qeyd olunanlara əsasən:** Təhsil haqqının ödənilməsi «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.1-ci maddəsi ilə müəyyən edilmiş nağdsız hesablaşmaların hər üç forması üzrə həyata keçirilə bilər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Maarifləndirmə və məlumatlandırma tədbirləri davam etdirilir

Mayın 15-də Vergilər Nazirliyi yanında Bakı Lokal Gəlirlər Departamentində Bakı şəhəri ərazisində fəaliyyət göstərən sahibkarlar, onların ictimai birlikləri, assosiasiyaları və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə keçirilən görüşdə «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun və «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi, Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli qərarı ilə təsdiq olunmuş «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları», Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» və «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydaları»nın tətbiqi, həmçinin «İnsan hüquqları aylığı» ilə bağlı insan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi kimi məsələlər ətrafında müzakirələr aparılmışdır.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti, Vergi siyasəti və strateji araşdırmalar departamenti, Vergi risklərinin təhlili və nəzarəti departamentinin əməkdaşlarının iştirak etdiyi tədbirdə çıxış edən vergilər nazirinin müşaviri - Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamentinin baş direktoru Ələkbər Məmmədov bildirmişdir ki, vergi qanunvericiliyində edilmiş dəyişikliklərin mahiyyətinin iş adamlarına çatdırılması məqsədilə geniş miqyaslı maarifləndirmə və məlumatlandırma təbirləri keçirilir: «Dövlət başçısının vergi



sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə sərəncamından irəli gələn məsələlərin həlli ilə bağlı vergi sistemində aparılan islahatlar bu sahədə hüquqi bazanın təkmilləşdirilməsindən tutmuş vergi inzibatçılığının yenidən qurulmasına qədər bütün sahələri əhatə edir. Bu baxımdan, əlavə məlumatlandırma tədbirlərinə ehtiyac yarandığını nəzərə alaraq vergi ödəyiciləri, eləcə də bütün maraqlı tərəflərlə görüşlərin qrafiki hazırlanıb. Qrafikə əsasən, həm Bakı şəhərində, həm də regionlarda fəaliyyət göstərən vergi ödəyiciləri ilə silsilə görüşlərin keçirilməsi nəzərdə tutulur».

Görüşdə sahibkarlar və QHT nümayəndələri tərəfindən ilin əvvəlindən bəri müşahidə olunan, sual doğuran, izahat tələb edən məsələlərə aydınlıq gətirilmişdir.

### *Görüş iştirakçılarının təəssüratları:*

***Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev:***

«Belə görüşlərin təşkil olunması çox əhəmiyyətli və faydalıdır. Burada bizə - qeyri-hökumət təşkilatlarının nümayəndələrinə söz demək imkanı yaradılır, bizə maraqlı olan məsələlərlə bağlı suallarımıza cavab tapa bilirik. Hesab edirəm ki, bu tədbirlərdə digər aidiyyəti qurumların da iştirak etməsi daha faydalı olar. Ümumiyyətlə, Azərbaycanın vergi sistemi ictimaiyyətlə münasibətlərin qurulmasında böyük nailiyyətlər əldə edib və bu, vergi sisteminin təkmilləşdirilməsinə öz müsbət təsirini göstərib. Hər bir vətəndaş anlamalıdır ki, vergi olmasa, dövlətin iqtisadi bazası da formalaşa bilməz».

***Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqının sədri Tofiq Quliyev:***

«Bugünkü görüşü bütün iştirakçılar kimi, mən də olduqca müsbət qiymətləndirirəm. Son illər Azərbaycan iqtisadiyyatında, o cümlədən vergi sahəsində güclü islahatlar gedir və onun praktiki icrasında bəzi problemlərlə üzləşirik. Bu baxımdan, belə tədbirlərin keçirilməsi üzləşdiyimiz problemlərdən çıxış yolunu göstərir, bizi maraqlandıran sualların hər birinə cavab tapa bilirik. Görüşün təşkilində əməyi olan hər kəsə təşəkkür edirəm».

***«Teas Press» nəşriyyat evinin təmsilçisi Şahin Sadıqov:***

«Təbii ki, vergi ödəyiciləri ilə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin görüşləri müsbət qiymətləndirilməlidir. Ümumiyyətlə, nazirliyin vergi ödəyicilərinin maarifləndirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Geniş auditoriyaya izah edilməsi, daha aydın çatdırılması zəruri olan məsələlərlə bağlı kifayət qədər maarifləndirmə, təbliğat işləri aparılır. Bu cür görüşlər vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə də mühüm təsir göstərir».

**Aytən NƏBİYEVA**

## Sosial sığortada yeni sistem tətbiq edilir

Vahid rüblük hesabat alt sisteminin tətbiqi sığortaedənlərin sosial sığortada fəaliyyətinin daha çevik, rahat və səmərəli təşkilinə imkan verir. Bu sahədə tətbiq olunan yeni elektron sistem vətəndaşlara öz işəgötürənləri üzərində daha operativ ictimai nəzarət imkanlarının yaradılmasına şərait yaradır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayevin sözlərinə görə, sığortaedənlərin Dövlət Sosial Müdafiə Fonduna təqdim etdiyi hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqları və fərdi uçot məlumatlarına dair iki müxtəlif hesabat fərdi uçot prinsipi əsasında birləşdirilərək vahid rüblük hesabatla əvəz edilib. 2017-ci ilin 1 aprel tarixindən hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqları və fərdi uçot məlumatlarına dair yeni vahid rüblük hesabat alt sisteminin tətbiqinə başlanılıb: «Bu yenilik əhaliyə xidmətlərin keyfiyyətinin yüksəldilməsi tədbirlərinin davamı olaraq, işəgötürənlərin də hüquqi mənafelərinə xidmət edir, sığortaedənlər üçün hesabatların təqdim olunması prosesinin sadələşdirilməsinə və hesabatların sayının azaldılmasına, digər tərəfdən, vətəndaşlar üçün fərdi uçot məlumatlarını rüblük əldə etməklə öz işəgötürənləri üzərində daha operativ ictimai nəzarət imkanlarının yaradılmasına şərait yaradır. Fərdi uçot əsaslı rüblük hesabatın əsas üstünlüyü hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının həmin dövrdə sığortaolunanların fərdi şəxsi hesablarında hesabat dövründə nəzərə alınmasıdır. Bu isə pensiya təyinatı sisteminin operativliyini artıracaqdır.

Qeyd olunub ki, sığortaedənlər elektron hesabatın təqdim olunması üçün «Elektron hökumət» portalına daxil olmağa imkan verən autentifikasiya vasitələrindən istifadə edərək, vahid rüblük hesabatlarını təqdim ediblər. İşçisi olmayan fiziki şəxslər və torpaq pay mülkiyyətçiləri isə elektron hesabatları cari ilin sonunadək Dövlət Sosial Müdafiə Fondu orqanları tərəfindən onlara verilmiş PİN zərflərdəki istifadəçi adı və şifrə ilə təqdim edə bilərlər.

**FƏXRİYYƏ**

## Sertifikatlaşdırma prosesi təkmilləşdirilir

*Müasir dövrdə insan resurslarından səmərəli istifadə hər bir təşkilatın gələcək hədəflərinə çatması üçün strateji əhəmiyyət daşıyır*

Dövlət vergi orqanlarında müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılması Vergilər Nazirliyinin kadrların inkişafı sahəsində yürütdüyü siyasətin ayrılmaz tərkib hissəsidir. Sertifikatlaşdırmanın məqsədi vergi orqanlarında çalışan əməkdaşların bilik və bacarıqlarının təkmilləşdirilməsi və müvafiq sahələrə uyğunluğunun qiymətləndirilməsi yolu ilə onların fəaliyyətində səmərəliliyin artırılmasıdır.

Keçən ilin aprel ayından vergi orqanlarının əməkdaşlarının bilik və bacarıqlarının sertifikatlaşdırılmasına başlanıldı.  Bu addımın atılması dövlət orqanları arasında ilk təşəbbüs idi. Sertifikatlaşdırma zamanı meydana çıxan bəzi məsələlərin daha da təkmilləşdirilməsi məqsədilə vergilər nazirinin 17 aprel 2017-ci il tarixli əmri ilə «Dövlət vergi orqanlarında fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılması qaydaları» yeni redaksiyada təsdiq olunmuşdur. Qaydalarda sertifikatlaşdırmanın iki fərqli növü müəyyən edilmişdir: məcburi və könüllü. Məcburi sertifikatlaşdırma zamanı yüksək nəticə göstərmiş vergi orqanı əməkdaşlarının maddi həvəsləndirilməsi nəzərə alınmışdır.

Yeni qaydalara əsasən, sertifikatın qüvvədə olma müddəti 5 il müəyyən edilmişdir. Eyni fəaliyyət sahəsi üzrə iki dəfə sertifikat almış vergi orqanı əməkdaşına isə həmin sahə üzrə sonuncu sertifikat müddətsiz verilir. Dəyişikliklərə əsasən, sertifikatlaşdırma təlimlərində davamiyyət məsələsinə də mühüm yer verilir. Üzürsüz səbəbdən təlim saatlarının «vergi qanunverciliyi» üzrə 35 faiz və daha çoxunda, «vergi inzibatçılığı» üzrə isə 50 faiz və daha çoxunda iştirak etməyən əməkdaşlar təlim kursunu keçməmiş hesab edilirlər. Burada əsas məqsəd əməkdaşların təlim prosesinə daha məsuliyyətli yanaşmasını təmin etməkdir. Sertifikatlaşdırma imtahanları zamanı əməkdaşlara təqdim olunan sualların mövzuları ümumilikdə bütün təlimləri əhatə etdiyinə görə, vergi orqanı əməkdaşlarının təlimlərdə iştirakı nəticələrə də öz təsirini göstərir. Təlimlər zamanı nizam-intizama riayət edən əməkdaşlar həm öz səriştələrini artırır, həm də imtahanlarda yüksək nəticələr əldə edirlər.

# İnnovasiya fəaliyyətinin stimullaşdırılması və vergitutma

Müasir dövrdə dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsinin əsasında elmin inkişafı, rəqabətədavamlı innovasiya məhsulunun istehsalı və ixracı dayanır. İnnovasiyalar həm texnika və texnologiyaya, həm də istehsalın və idarəetmənin təşkili formalarına aiddir. İnnovasiya siyasətində əsas məqsəd istehsal və xidmət sferasında fəaliyyət göstərən bazar strukturlarını yeni məhsul və texnologiyaların mənimsənilməsinə stimullaşdırmaqla ölkədə istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və davamlı iqtisadi artımın təmin edilməsinə nail olmaqdır. Beynəlxalq təcrübə göstərir ki, yeni dəyərlərin praktikada tətbiqinin stimullaşdırılması üçün təşviq mexanizmlərinin formalaşdırılması və bu sahədə kompleks tədbirlərin işlənib hazırlanması, eləcə də sistemli şəkildə həyata keçirilə bilməsi üçün qanunvericilik bazasının yaradılması zəruri şərtlərdəndir.

İqtisadçı ekspert Fikrət Yusifovun fikrincə, ölkəmizin vergi sistemində aparılan islahatlar sahibkarlıq mühitinin inkişafına güclü impuls verilməsi üçün zəmin yaratmışdır: «Vergitutma mexanizminin hazırkı inkişaf səviyyəsi müəssisələrin innovasiya fəaliyyətinin dəstəklənməsi üçün təsirli güzəştlər təklif etmək iqtidarındadır. Tənzimləmə vasitələri arasında balansın yaradılması və tənzimləmə tədbirlərinin ünvanlılığının təmin edilməsi üçün dövlət tərəfindən əhəmiyyətli işlər görülməkdədir. Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye və yüksək texnologiyalar parkları fəaliyyətə başlamışdır. İnnovasiyalı iqtisadi sistemin qurulması üçün böyük əhəmiyyət kəsb edən belə parkların yaradılması və burada fəaliyyət üçün vergi güzəştlərinin tətbiqi qloballaşan dünyada rəqabətli mühitin diqtə etdiyi zərurətdən doğur».

> Vergitutma mexanizminin hazırkı inkişaf səviyyəsi müəssisələrin innovasiya fəaliyyətinin dəstəklənməsi üçün təsirli güzəştlər təklif etmək iqtidarındadır

Qeyd edilmişdir ki, belə şəraitdə yenilikçi müəssisələrin dövlət tərəfindən dəstəklənməsi milli iqtisadiyyatın innovativ inkişaf yoluna keçməsi üçün mühüm əhəmiyyət kəsb edir: «Aparılmaqda olan vergi islahatları ölkəmizin vergi sisteminə milli iqtisadiyyatın innovativ inkişafının təmin edilməsi istiqamətində daha mürəkkəb vəzifələri yüksək keyfiyyətlə icra etmək üçün geniş imkanlar yaratmaqdadır. Yüksək texnologiyalar parklarında fəaliyyətə tətbiq olunan çox ciddi vergi güzəştlərinin və digər tənzimlənmə tədbirlərinin yaxın gələcəkdə verəcəyi nəticələr dövlətin bu istiqamətdə apardığı tənzimləmə tədbirlərinin nə dərəcədə səmərəli olduğunu göstərəcəkdir».

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin təkmilləşdirilməsi şöbəsinin rəhbəri Rəşad Nuriyev qaldırılan məsələlərin qanunçuluqda öz əksini necə tapdığına aydınlıq gətirmişdir. Onun şərhinə əsasən, Vergi Məcəlləsinin 67-1.1-ci maddəsində göstərilir ki, sənaye, yaxud texnologiyalar parklarının rezidenti sənaye, yaxud texnologiyalar parklarında yerləşən təsərrüfat və digər vergitutma obyektlərini bu Məcəllə ilə müəyyən edilmiş güzəşt müddəti bitənədək təqdim etdikdə:

67-1.1.1. əvvəlki rezidentin mövcud investisiya layihəsinə uyğun olaraq mal (iş, xidmət) istehsalına başlamağı və ya davam etdirməyi öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri həmin müddətin qalan hissəsi ərzində verilir;

67-1.1.2. yeni investisiya layihəsinə uyğun olaraq digər növ mal (iş, xidmət) istehsalını təşkil etməyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdən az olmayan sərmayə qoyuluşunu öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri bu Məcəllə ilə nəzərdə tutulmuş tam müddət ərzində verilir.

R.Nuriyev bildirmişdir ki, Vergi Məcəlləsinin 67-1.2-ci maddəsi üzrə sənaye, yaxud texnologiyalar parklarının rezidenti sənaye, yaxud texnologiyalar parklarında yerləşən təsərrüfat və digər vergitutma obyektlərini bu Məcəllə ilə müəyyən edilmiş güzəşt müddəti bitəndən sonra təqdim etdikdə:

67-1.2.1. əvvəlki rezidentin mövcud investisiya layihəsinə uyğun olaraq mal (iş, xidmət) istehsalını davam etdirən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri verilmir;

67-1.2.2. yeni investisiya layihəsinə uyğun olaraq digər növ mal (iş, xidmət) istehsalını təşkil etməyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdən az olmayan sərmayə qoyuluşunu öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri bu Məcəllə ilə nəzərdə tutulmuş tam müddət ərzində verilir.

Məcəllənin 67-1.3-cü maddəsi üzrə sənaye, yaxud texnologiyalar parklarının rezidenti yeni investisiya layihəsinə əsasən sənaye, yaxud texnologiyalar parklarında digər istehsal sahəsi qurduqda, bu Məcəllə ilə müəyyən edilmiş vergi güzəştləri rezidentin sənaye, yaxud texnologiyalar parklarında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada yeni investisiya layihəsi üzrə qeydiyyata alındığı tarixdən hesablanır. Bu halda Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi güzəştləri yeni investisiya layihəsi üzrə fəaliyyətə şamil olunur.

Vergi Məcəlləsinin 67-1.4-cü maddəsinə əsasən isə sənaye, yaxud texnologiyalar parklarının rezidenti vergi güzəştlərinin tətbiq olunduğu dövrdə sənaye, yaxud texnologiyalar parklarından kənarda fəaliyyət göstərdikdə həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotunu ayrıca aparmalıdır. Bu zaman sənaye, yaxud texnologiyalar parklarının rezidenti bu parklardan kənarda göstərdiyi fəaliyyətə görə əldə etdiyi gəlirlərdən vergiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəyir.

Vergi Məcəlləsinin 67-1.5-ci maddəsində göstərilmişdir ki, bu Məcəllənin 67-1.3-cü maddəsində nəzərdə tutulan halda sənaye, yaxud texnologiyalar parklarının rezidenti yeni investisiya layihəsinə əsasən sənaye, yaxud texnologiyalar parklarında qurduğu digər istehsal sahəsinin fəaliyyəti ilə bağlı gəlirlərin və xərclərin uçotunu vergi güzəştlərinin tətbiq olunduğu dövrdə ayrıca aparmalıdır.

**Fəxriyyə İKRAMQIZI**

# Ticarət festivalı başa çatdı

**Bakıda keçirilən Ticarət festivalına («shopping festival») yekun vurulub. Ölkənin turizm və iqtisadi potensialının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılması məqsədilə təşkil edilən festival bu ilin aprel ayının 10-dan mayın 10-dək davam etmişdir.**

Xatırladaq ki, dövlət başçısının 20 fevral 2017-ci il tarixli fərmanı ilə ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması qaydaları təsdiqlənmiş və bu qaydalara uyğun olaraq, Vergilər Nazirliyi ticarət festivallarının operatoru kimi ƏDV-nin qaytarılması ilə bağlı proqram təminatının, vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin etmişdir. Ticarət festivalları dövründə alınan mallara görə ƏDV-nin qaytarılması yalnız bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda təmin edilmişdir. Festival zamanı hər bir alıcı verginin qaytarılması ilə bağlı satıcılar tərəfindən izahlı məlumatlar əldə edə bilmişdir. «Tax free» sistemində olduğu kimi, ticarət festivalı zamanı da bir sıra mallara görə tutulmuş ƏDV qaytarılmamışdır. Buraya aksizli mallar, ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallar, nəqliyyat vasitələri və onların ehtiyat hissələri aiddir. Ticarət festivalları dövründə, «tax free» sistemindən fərqli olaraq, əcnəbilərlə yanaşı, yerli vətəndaşlara da ƏDV qaytarılır. Daha bir fərq isə alınan mallar üçün ödənilən məbləğin həddinə aiddir. «Tax free» sistemində 300 manatdan artıq alınmış mallar üzrə ƏDV-nin qaytarılması nəzərdə tutulduğu halda, ticarət festivalları zamanı bu hədd daha aşağı idi: bir elektron vergi hesab-fakturası üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə minimum 100 manat olmalı idi. «Tax free» sisteminə əsasən, alıcı malı ölkə ərazisindən çıxardıqdan sonra ən geci 90 gün ərzində, ticarət festivallarında isə mal alındığı gün nağd qaydada və ya 10 gün ərzində nağdsız qaydada ƏDV geri qaytarılır. «Tax free» sistemində malların yoxlanılması və ƏDV-nin qaytarılması gömrük sərhəd-buraxılış məntəqələrində, ticarət festivallarında isə bilavasitə ticarət məkanlarında yaradılan xüsusi köşklərdə həyata keçirilir.




“ *Bakıda keçirilən ticarət festivalı təkcə yerli medianın deyil, beynəlxalq aləmin, eləcə də xarici KİV-lərin diqqət mərkəzində olub*

Ticarət festivalı dövründə festival iştirakçısı olan hər bir ticarət obyektindən mal almış istənilən şəxs ona lazım olan bir çox malları daha ucuz qiymətə əldə edə bilmişdir ki, bu da öz növbəsində ticarət dövriyyəsinin artmasına səbəb olmuşdur.

Bakıda keçirilən ilk ticarət festivalı ərzində alınmış mallara görə 172 obyektdə 22.112 elektron vergi hesab-fakturası tərtib edilmiş, onlardan da 20.853-ü Vergilər Nazirliyinin ƏDV köşklərində təsdiqlənmişdir. Təsdiqlənmiş hesab-fakturaların 19.119-u Azərbaycan vətəndaşları, 1734-ü isə əcnəbilər tərəfindən təqdim olunmuşdur. Dövriyyənin ümumi məbləği 15 milyon 471 min 805 manat, alıcılara qaytarılmış məbləğ isə 1 milyon 533 min 005,7 manat təşkil etmişdir. Mal alarkən ticarət festivalını deyil, «tax free» sistemini seçmiş əcnəbilərə ümumi məbləği 2 milyon 696 min 087,3 min manat olan 1130 elektron vergi hesab-fakturası təqdim olunmuşdur. Beləliklə, ümulikdə əcnəbilərə ƏDV-nin qaytarılması məqsədilə məbləği 4 milyon 127 min 50,8 manat olan 3059 elektron vergi hesab-fakturası verilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev festivalla bağlı açıqlamasında Bakı Şopinq Festivalının dünya turizm bazarında böyük əks-səda doğurduğunu qeyd edib. Nazir Bakıya gələn turistlərlə yanaşı, yerli vətəndaşların da festivalda fəal iştirakını yüksək qiymətləndirib. Yerli və xarici mütəxəssislərin rəyinə görə, bu təşəbbüs regionda sözügedən sahədə liderlik üçün çox ciddi bir addım idi. Dünya təcrübəsində ilk dəfə olaraq ticarət festivalı çərçivəsində həm turistlər, həm də yerli əhali bu imkanlardan faydalana biliblər. Festivala qoşulmuş mağaza və restoranlar tərəfindən alıcılar üçün bir çox güzəşt və kampaniyalar tətbiq olunub, mağazalar 30 faizdən 70 faizədək endirimlər edib. Bundan başqa, turistlər və Azərbaycan vətəndaşları üçün təqdim olunmuş xüsusi ƏDV qaytarılması proqramı bütün alıcılar tərəfindən razılıqla qarşılanıb.

Festival dövründə, demək olar, hər gün paytaxtımızdakı ticarət mərkəzlərində və Bakıya gələn turistlərin daha çox maraq göstərdiyi İçərişəhərdə alıcıların, şəhərimizin sakinlərinin və turistlərin maraqla qarşıladığı əyləncə proqramları təşkil edilib. Eyni zamanda, Bakı Şopinq Festivalının fəxri qonaqları - dünya şöhrətli ulduzlar Canluka Vakki və Vera Brejneva, eləcə də digər tanınmış incəsənət ustalarının çıxışları böyük maraqla qarşılanıb.

Festival təkcə yerli medianın deyil, beynəlxalq aləmin, eləcə də xarici KİV-lərin diqqət mərkəzində olub.

Ə.Qarayev bildirib ki, Bakı Şopinq Festivalı brendə çevrilib və festivalın gələcəkdə ənənə halını alması üçün önəmli addım atılıb. Uğurla başlanan Bakı Şopinq Festivalı növbəti dəfə bu ilin sonuna yaxın keçiriləcək və bu barədə məlumat yaxın vaxtlarda veriləcək.

**R. SADIQOV**

# Güzəştli kreditlər sahibkarlığın inkişafında canlanma yaradır

Ötən il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkarlıq subyektlərinin 2500-ə yaxın investisiya layihəsinin maliyyələşdirilməsinə 190 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması sayəsində 8100-dən çox yeni iş yeri yaradılıb.

2017-ci ildə qaytarılan vəsaitlər hesabına sahibkarlara 150 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur. Artıq bu ilin birinci




rübü ərzində sahibkarlarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə respublikanın 5 bölgəsində işgüzar forumlar keçirilib. İlk işgüzar forum 200-ə yaxın sahibkarın iştirakı ilə Şəmkir rayonunda təşkil olunub. Forum çərçivəsində sahibkarlarla rayonun iqtisadi potensialının reallaşdırılması istiqamətində müzakirələr aparılıb, fond tərəfindən rayonda fəaliyyət göstərən aqroparkın, kartof və soğanın saxlanılması üçün anbarın, quru meyvə istehsalının, kiçik və orta həcmli istixana, intensiv üzümçülük və kartofçuluq təsərrüfatlarının və dəyirmanın yaradılması üzrə hazırlanmış nümunəvi investisiya layihələri və metodiki materiallar sahibkarlara təqdim olunub. Forum zamanı müvəkkil kredit təşkilatları vasitəsilə Şəmkir və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 270 min manat güzəştli kredit verilib. Kreditlər əsasən heyvandarlıq, üzümçülük, bağçılıq, tərəvəzçilik sahələrinin inkişafına yönəldilib.

Yevlax rayonunun Yuxarı Bucaq kəndində keçirilmiş işgüzar forumda isə sahibkarlara güzəştli kreditlərin alınması mexanizmi barədə məlumat verilib, rayonda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr təqdim olunub, sahibkarların investisiya layihələri maliyyələşdirilib. 80-ə yaxın sahibkarın iştirak etdiyi forumda sahibkarlıq subyektlərinə heyvandarlıq, pambıqçılıq, plastik boru istehsalı və s. sahələrin inkişafı məqsədilə 790 min manat güzəştli kredit verilib. Kreditlərin reallaşdırılması hesabına 40-dan çox yeni iş yerinin açılacağı gözlənilir.

Qax rayonunda keçirilmiş işgüzar forum çərçivəsində rayonun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan iri fermer, bağçılıq, cins heyvandarlıq, intensiv tütünçülük və arıçılıq təsərrüfatlarının, quru tütünün saxlanılması üçün anbarın, tütün emalı və üçulduzlu otelin tikintisi üzrə nümunəvi investisiya layihələrinin təqdimatı olub. Forumda Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlara 224 min manat güzəştli kredit verilib.

Sahibkarlığın güzəştli kreditləşdirilməsinə dair işgüzar forumlar Xəzər rayonunun Mərdəkan qəsəbəsində və Cəlilabad rayonunda da təşkil olunub.

**AYTƏN**

# Güzəştlər bəhrəsini verir

Ölkədə aparılan iqtisadi islahatlar kənd təsərrüfatının inkişafına canlanma gətirmişdir. Əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına, buğda, çəltik, pambıq və tütün səpininə, sortlu toxum və tinglərin istehsalına və satışına, mineral gübrələrin güzəştli şərtlərlə satışına, mal-qaranın cins tərkibinin yaxşılaşmasına, müasir kənd təsərrüfatı texnikalarının və texnoloji avadanlıqların alınaraq istehsalçılara güzəştli şərtlərlə lizinqə verilməsinə, habelə bu sahədə fəaliyyət göstərən sahibkarları güzəştli kreditlərlə təmin etməyə və digər tədbirlərə hər il dövlət büdcəsindən yüz milyonlarla vəsait yönəldilir. Bunun nəticəsidir ki, ötən on ildə ölkəmizdə bütün növ kənd təsərrüfatı məhsulları istehsalı xeyli artmış - taxıl istehsalı 41 faiz, şəkər çuğunduru 5 dəfə, ət 50,8 faiz, süd 53,7 faiz və yumurta istehsalı 77,8 faiz çoxalmışdır.




Millət vəkili Eldar İbrahimovun sözlərinə görə, dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına respublikamızda 39 quşçuluq müəssisəsi, 16 cins heyvandarlıq kompleksi, 7 süd və 7 ət istehsalı müəssisəsi açılmış, 28 intensiv bağçılıq təsərrüfatı, 30 müasir istixana kompleksi və 15 meyvə-tərəvəz emalı müəssisəsi yaradılmışdır. Bu tədbirlər nəticəsində aqrar sektorun yeni texnika və texnologiyalara, qabaqcıl təcrübəyə və elmi nailiyyətlərə əsaslanan innovativ inkişafı üçün möhkəm təməl qoyulmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən, torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilmişdir. Ancaq bu güzəştlər yalnız kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq edilir. Həmin şəxslər bir sıra hallarda istehsal etdikləri kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurlar. Kənd təsərrüfatı məhsullarının istehsalçısı olmayan şəxslər isə istehsalçılardan tədarük edilərək malların digər şəxslərə satılması, habelə hər hansı formada emal edilməklə satılması ümumi qaydada vergiyə cəlb edilməlidirlər. Bu sahələrdə yaranan fikir ayrılığı və mübahisələrin aradan qaldırılması üçün kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsi zərurəti yaranmışdır. Bu zərurətdən irəli gələrək, 2017-ci ildə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərdə kənd təsərrüfatı məhsullarının istehsalının və satışının anlayışları vergi qanunvericiliyinə daxil edilmişdir. Sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və digər yerlər) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi kənd təsərrüfatı məhsullarının istehsalı anlayışına aid edilmişdir.

İstehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlıların diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsulların ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməsi və bitkiçilik məhsullarının və digər kənd təsərrüfatı məhsullarının təqdim edilərkən təbiətdə olduğu ilkin formasını saxlaması, kimyəvi tərkibinin dəyişdirilməməsi, konservləşdirilməməsi kənd təsərrüfatı məhsullarının satışına aid edilmişdir.

Qanunvericilikdə edilmiş bu cür dəyişikliklər kənd təsərrüfatı sektorunu iqtisadiyyatın aparıcı sahəsinə çevirməyə, regionlarda kənd adamlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir. E.İbrahimov qeyd etmişdir ki, aqrar islahatların aparılması, qanunvericilikdə edilmiş stimullaşdırıcı dəyişikliklər nəticəsində ölkəmizdə 851 mindən çox ailə (3 milyon 500 min nəfər) torpaq payı alaraq kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olur. Həmçinin regionlarda böyük infrastruktur layihələri həyata keçirilmiş, çoxlu sayda müəssisələr yaradılmış, yeni iş yerləri açılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş proqramların icrasına ötən 10 il ərzində 50,7 milyard manat, o cümlədən birinci proqramda 16 milyard, ikinci proqramda isə 34,7 milyard manat vəsait yönəldilmişdir. Bundan əlavə, regionların sosial-iqtisadi inkişafına dair proqramlarda nəzərdə tutulmayan məsələlərin həllinə Prezidentin Ehtiyat Fondundan 737,4 milyon manat vəsait ayrılmışdır. Bu vəsaitlər hesabına son 10 ildə regionlarda 500-dən çox sənaye müəssisəsi, 2708 məktəb binası, 500-dən çox səhiyyə, 700-ə yaxın mədəniyyət, 250-dən çox idman və gənclər obyektləri tikilmiş və ya əsaslı təmir edilmişdir.

**RƏŞAD**

# Özəlləşdirilmədə yeni dövr başlayır

Daşınmaz əmlakın özəlləşdirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması, sosial innovasiyaların tətbiqi, bu sahədə şəffaflığın təmin edilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində yeniliklərdən biri də «Dövlətə məxsus nəqliyyat vasitələrinin və avadanlıqların özəlləşdirilməsi ilə bağlı elektron hərrac» xidmətinin istifadəyə verilməsidir. Yeni xidmət işə düşdükdən sonra dövlət əmlakını almaq istəyən şəxslərin özəlləşdirmə hərracında iştirak etmək üçün hərrac mərkəzlərinə gəlməsinə ehtiyac qalmayacaq. Bu elektron xidmətin tətbiqi nəinki Azərbaycanda, habelə dünyanın istənilən nöqtəsindən investorlara hərraclara qatılmağa imkan verəcək.

Əmlak Məsələləri Dövlət Komitəsindən bildirilib ki, elektron hərracın yaradılmasında məqsəd şəffaflığın təmin olunması, hərracların keçirilmə üsullarının sadələşdirilməsi, prosesə daha optimal yanaşmaların tətbiqidir. Bu sahədə operativliyin yaradılması, vətəndaş-məmur münasibətlərinin minimuma endirilməsi, zaman və məkan məfhumunun aradan qaldırılması, investorların özəlləşdirməyə cəlb olunması ilə bağlı geniş imkanların yaradılması da əsas vəzifələrdəndir. Bu elektron xidmətin tətbiqi nəticəsində özəlləşdirmə prosesi avtomatlaşdırılacaq və bununla da sərmayəçilər, biznes qurumları daha çevik üsullarla özəlləşdirmədə iştirak edə biləcəklər. Prosesin elektron müstəviyə keçməsi ölkədə investorların sayının artmasına, sağlam iqtisadi mühitin formalaşmasına imkan verəcək. Onlayn hərracın ən vacib üstünlüyü isə müasir texnologiyalardan istifadə etməklə vətəndaşın vaxt və maliyyə itkilərinin qarşısını almaqdır.

Bildirilib ki, istənilən vətəndaş, yaxud iş adamı elektron imza vasitəsilə Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi saytında (e-emdk.gov) və ya Elektron Hökumət Portalında (e-gov.az) qeydiyyatdan keçə bilər. Qeydiyyatdan keçmiş hər bir sifarişçi hərrac günü onlayn qaydada aktiv hərraca qatılmaq imkanı qazanacaq. Hərraclarda iştirak etmək üçün sifariş vermək də elektron qaydada həyata keçiriləcək. Sifarişçinin hərracda iştirakla bağlı seçim imkanı olacaq: ya hərrac günü göstərilən vaxt prosesin keçirildiyi yerə gələ, ya da hərrac keçirildiyi zaman Komitənin portalında müvafiq bölməyə daxil olaraq hərracda onlayn iştirak edə biləcək.

Hərrac başladıqdan sonra ilk beş dəqiqə ərzində heç bir iştirakçı tərəfindən təklif verilməsə, əlavə olunan bir dəqiqə ərzində bu vəziyyət yenə də təkrar olarsa hərrac dayandırılacaq, baş tutmamış sayılacaq. Hərrac rəqabətli keçdikdə isə iştirakçılar əmlakın ilkin satış qiymətindən əlavə təkliflər edə bilərlər. Hər yeni təklif ilkin satış qiymətinin 1 faizindən az olmamalıdır. Hərracda ən yüksək qiymət təklif etmiş iştirakçı qalib elan ediləcək.

“ Elektron hərracın yaradılmasında məqsəd şəffaflığın təmin olunması, hərracların keçirilmə üsullarının sadələşdirilməsi, prosesə daha optimal yanaşmaların tətbiqidir

Qanunvericiliyə uyğun olaraq, hərracın canlı və ya virtual iştirak etmiş qalibi 30 bank günü müddətində ödənilməli olan pul vəsaitini satıcının müəyyən etdiyi hesaba köçürməlidir. Alıcı göstərilən müddətdə həmin məbləği ödəmədiyi halda, beh geri qaytarılmayacaq, tam məbləğdə dövlət büdcəsinə köçürüləcək, əmlak isə satıcının sərəncamında qalacaq.

Elektron hərracda ilkin mərhələdə nəqliyyat vasitələri və avadanlıqların özəlləşdirilməsi mümkündür. Özəlləşdirilən əmlakların əhatə dairəsi yaxın gələcəkdə genişləndiriləcək. Bu istiqamətdə artıq müvafiq proqramlaşdırma işləri də həyata keçirilir.

**A.NƏBİYEVA**

# «Vergiləri ödəyək - ordumuz qüdrətli olsun!»

*Vergilər Nazirliyinin «Facebook» səhifəsində keçirilmiş **«Vergiləri ödəyək - ordumuz qüdrətli olsun!»** mövzusunda fotomüsabiqəyə yekun vurulub*

Bir ay davam edən müsabiqə zamanı iştirakçılar çəkdikləri fotoları nazirliyin elektron ünvanına göndəriblər və həmin yaradıcı fotolar təşkilatçılar tərəfindən seçildikdən sonra Vergilər Nazirliyinin «Facebook» səhifəsində yerləşdirilib. Müsabiqənin sonunda ən çox bəyənilən beş foto müəyyən edilib. Azərbaycan Fotoqraflar Birliyi üzvlərinin, həmçinin Vergilər Nazirliyinin nümayəndələrinin daxil olduqları münsiflər heyəti Tural Hüseynovu 1-ci yerə layiq görərək müsabiqənin qalibi elan edib. Taleh Valehov, Rəşad Mehdiyev, Mircəlal Məcidov, Valeh Arifoğluna isə həvəsləndirici hədiyyələr təqdim olunub.

Müsabiqənin keçirilməsində məqsəd foto sənəti ilə məşğul olan insanlar vasitəsilə vergi mədəniyyətini təbliğ etmək, vergi sahəsində məlumatlandırma, maarifləndirmə işlərinə dəstək vermək, vergi ödənişlərinin büdcəmiz və ordumuz üçün əhəmiyyətini ictimaiyyətə çatdırmaqdır.




Tural Hüseynov




Mircəlal Məcidov




Rəşad Mehdiyev

**Tural Hüseynov:**
«Beş ildir həvəskar fotoqrafiya ilə məşğulam. İlk dəfə müsabiqədə iştirak edirdim. Birinci yeri tutmağım mənim üçün gözlənilməz və xoş bir hadisə oldu».

**Taleh Valehov:**
«Mənim foto yaradıcılığımda vətənpərvərlik mövzusu xüsusi yer tutur. Təqdim etdiyim foto «Öp bayrağını» foto layihəmdən götürülmüşdü. Fotonun müsabiqə şərtlərinə uyğun gəldiyini görüb təqdim etdim və sevinirəm ki, qaliblər sırasındayam».



Taleh Valehov

**Mircəlal Məcidov:**
«İxtisasca jurnalistəm, Femida.az saytının əməkdaşıyam. Vergilər Nazirliyinin bu müsabiqəsini iki cəhətdən lazımlı və faydalı hesab edirəm. Birincisi, insanların diqqətini ordumuza cəlb etmək, vətənpərvərlik ruhu aşılamaqdır. Digər tərəfdənsə vergilərin vətənin, cəmiyyətin, eləcə də hər bir vətəndaşın həyatında oynadığı rolun əhəmiyyəti barədə maarifləndirmə işləri aparmaq. Mənə elə gəlir ki, müsabiqənin təşkilatçıları hər iki işin öhdəsindən layiqincə gəldi».

FƏXRİYYƏ

# Bank sektorunun inkişafına yönəlmiş mühüm addım

## *Məqsəd davamlı artım və mənfəətlilik nümayiş etdirən güclü bank sisteminin qurulmasıdır*

Ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırılması ilə bağlı Azərbaycan Prezidentinin bu günlərdə imzaladığı fərman ölkənin bank sektorunda mövcud olan bir sıra problemlərin həllinə yönəlmiş tədbirlərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sağlamlaşdırma tədbirləri çərçivəsində bankların qeyri-işlək (toksik) aktivlərinin təqdim edilməsi qaydaları hazırlanacaq və Maliyyə Bazarlarına Nəzarət Palatası fərmandan irəli gələn məsələləri həll edəcək. Bundan əlavə, «Banklar haqqında» Qanuna dəyişikliklər edilməsi də nəzərdə tutulur və yaxın günlərdə parlamentə ödəmə qabiliyyətini itrmiş bankların problemlərinin həll edilməsi üçün qanun layihəsi təqdim ediləcək.

Bəs bankların sağlamlaşdırılması prosesi necə həyata keçiriləcək və bu tədbirlərin bank bazarına təsiri nədən ibarət olacaq? Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlı bildirib ki, dövlət sistem əhəmiyyətli banklara dəstək verərək yeni alətlər tətbiq edəcək. Bu proses zamanı bankların maliyyə vəziyyəti, likvidlik problemləri, bazardakı potensialı və digər amillər nəzərə alınacaq. Bu məqsədlə bankın öhdəlikləri könüllü restrukturizasiya olunacaq. Ödəmə qabiliyyətini itirmiş və ya itirmək təhlükəsi ilə üzləşən bankın təxirə salınmadan və mümkün qədər az məsrəflə maliyyə bazarından kənarlaşdırılması məqsədilə maliyyə bazarlarına nəzarət orqanı tərəfindən investorlara satılması, digər banka qoşulması, aktiv və öhdəliklərinin köçürülməsi, «körpü bank»ın yaradılması həyata keçiriləcək. Prosesə uyğun olaraq, kapital ehtiyatları zəif olan banklar icbari qaydada birləşdiriləcək. Yeniliyə əsasən, bu bankların sağlamlaşdırılması iki formada aparıla bilər. Birincisi, sağlamlaşdırılmalı olan bank səhmlərinin 75%-i dövlətə məxsus banka ya birləşdirilə, ya da satın alına bilər. Bu halda, dövlət sağlamlaşdırılmalı olan bankın səhmlərinin 50%-i həcmində kapital qoyuluşu etməklə proses başa çatdıqdan sonra həmin hissəni başqa investora təklif edir.

Sağlamlaşdırma tədbirləri bəzi bankların ləğvi ilə də nəticələnə bilər. Palatanın müxtəlif dəstəkverici alətlərdən istifadə etməklə bərabər, sonuncu addım kimi bankın bağlanmasına qərar verməsi də istisna olunmur. Bankların maliyyə göstəriciləri, bazardakı iştirakçılığı və digər məsələlərin monitorinqi aparıldıqdan sonra ödəmə qabiliyyətini itirmiş bankın ləğv edilməsi barədə qərar veriləcək.

Bankların sağlamlaşdırılması qarşıdakı 3 ildə də davam etdiriləcək. Bu müddət ərzində likvidlik və kapitallaşma problemlərinin həll edilməsi, hüquqi və tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi nəzərdə tutulur. Strateji plana əsasən, bu dövrdə sağlam banklara, tam funksional maliyyə bazarlarına, Bazel III standartlarına uyğunlaşdırılmış risk idarəetməsinə, daha səmərəli və rəqəmsallaşdırılmış proseslərə və yüksək keyfiyyətli işçi heyətə malik olan maliyyə sisteminin qurulması əsas hədəflərdəndir. Hökumətin məqsədi maliyyə xidmətləri sektorunun güclü və diversifikasiya olunmuş maliyyə institutlarından təşkil edilməsi, davamlı artım və mənfəətlilik nümayiş etdirən güclü bank sistemi qurmaqdır. Eyni zamanda, bank sektorunda konsolidasiya prosesinin sürətlənməsi, maliyyə nəticələri arasında fərqlərin azalması nəticəsində bankların böyüyərək daha geniş xidmət portfelinə malik olması nəzərdə tutulur. Maliyyə Bazarlarına Nəzarət Palatası hesab edir ki, ölkədə güclü və sağlam maliyyə institutlarının formalaşması kredit məhsullarına alternativ çıxış imkanları yaradacaq və bu sektorda rəqabət güclənəcəkdir.

Bank sahəsi üzrə mütəxəssis Elçin Qədimovun fikrincə, ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırılması tədbirləri çərçivəsində kredit faizlərinə bazar qiyməti prinsipinin tətbiqində bəzi məsələlərin nəzərə alınması yaxşı olardı. Hazırda müştərilərin ödəmə qabiliyyəti aşağı düşdüyü üçün kreditlər böyük sayda restrukturizasiya edilir və banklar nəinki faiz dərəcəsi üzrə, hətta kreditin əsas məbləği üzrə müştərilərə böyük güzəştlərə getməli olurlar və nəticədə bazar qiyməti prinsipinə riayət etmək kifayət qədər çətinləşir. Bu baxımdan, restrukturizasiya olunan kreditlər üzrə də bazar qiyməti tətbiqi mexanizminə yenidən baxılması məqsədəuyğundur.




> “ Bankların maliyyə göstəriciləri, bazardakı iştirakçılığı və digər məsələlərin monitorinqi aparıldıqdan sonra ödəmə qabiliyyətini itirmiş bankın ləğv edilməsi barədə qərar veriləcək

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbov hesab edir ki, bankların sağlamlaşdırılması prosesində vergi güzəştlərinin də mühüm rolu var: «Bu ilin əvvəlindən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırma tədbirləri çərçivəsində onların qeyri-işlək aktivləri yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib, tətbiq olunan vergi amnistiyası çərçivəsində bir neçə bankın vergi borcları silinib. Bu addım indiki mərhələdə sistem əhəmiyyətli bankların kapital fondunun daha da möhkəmlənməsinə səbəb olacaq, ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırılaraq yenidən bank bazarında aktiv maliyyə vasitəçiliyini təmin etməsinə imkan verəcək».

**E.CƏFƏRLİ**

# 2017-ci ilin may ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

**2017-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdiriliş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi** cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər may ayında ödənilir, bəyannamə rüblük olaraq iyulun 20-dən gec olmayaraq təqdim edilir**

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri isə 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin aprel ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyinizi tövsiyə edirik.**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Vergi informasiyasının avtomatik mübadiləsi genişləndirilməlidir

Böyük Britaniyanın vergi xidməti vergi qanunvericiliyinə əməl olunması qaydalarında düzəlişi təsdiqləmişdir. Buraya vergilərə dair informasiyaların avtomatik şəkildə mübadiləsi barədə razılaşmaların yeni şərtləri daxil edilmişdir. Bundan əlavə, vergi qanunvericiliyinə əməl edilməməsinin hansı cərimə sanksiyalarına səbəb ola biləcəyi barədə müddəalara da aydınlıq gətirilmişdir.

Dəyişikliklər vergi hesabatları üzrə beynəlxalq standartlara, o cümlədən ABŞ-ın xaricdəki hesablarla bağlı vergi qanunvericiliyinə (FATCA), eləcə də OECD-nin hesabatlara dair ümumi standartlarına əməl olunmasını əhatə edir.

Bu il mayın 17-də qüvvəyə minəcək müddəalar Böyük Britaniyaya vergilərlə bağlı informasiyaların Avropa İttifaqının Direktivinə, FATCA, həmçinin OECD standartlarına uyğun olaraq, avtomatik mübadiləsinə dair öhdəliklərə əməl etməsinə şərait yaradacaq.

# Fransanın yeni prezidentinin vergi proqramı



Fransanın yeni seçilmiş prezidenti Emmanuel Makron seçkiqabağı kampaniya zamanı şirkətlər və fiziki şəxslər üçün vergi sahəsində mülayimləşmə aparacağını vəd etmişdi. Bildirmişdi ki, prezident seçiləcəyi təqdirdə vergi yükünü 20 milyard avro səviyyəsindən aşağı salacaq ki, bu addımın atılması həm vətəndaşların, həm də biznesin işini yüngülləşdirməyə, sahibkarlığın stimullaşdırılmasına yönəldiləcək.

Yeni prezidentin vergi proqramında hazırda 33,3% təşkil edən korporativ verginin dərəcəsinin 25%-ə endirilməsi nəzərdə tutulur. Bundan əlavə, Makron «zənginlik vergisinin» baza hissəsindən investisiya gəlirlərinin çıxılmasını, həmçinin ekoloji vergilərin qaldırılmasını da vəd etmişdi. Makronun prezident seçkilərində əsas rəqiblərindən olan Marin Li Pen isə diqqəti daha çox Fransa vətəndaşlarının ziyanına olaraq xarici vətəndaşların işə götürülməsinə üstünlük verən şirkətlərin vergi yükünün artırılacağına yönəltmişdi.

# Slovakiyada vergi yığımı yaxşılaşıb

Yığılan vergilərin və məcburi ödəmələrin məbləğinin əhəmiyyətli şəkildə artması Slovakiya hökumətinə büdcə kəsirini indiyə qədər qeydə alınmış ən aşağı səviyyəyə salmağa imkan yaratmışdır. Vergilərdən və yığımlardan əldə olunan büdcə gəliri proqnozlaşdırılan həddən 754,5 milyon avro artıq olmuşdur ki, bu da büdcə kəsirinin azalmasına ciddi təsir göstərmişdir. İndi ölkənin büdcə kəsiri ümumi daxili məhsulun (ÜDM) 0,92 faizi qədərdir. Keçən il Slovakiyanın dövlət büdcəsinin kəsiri ÜDM-in 1,93 faizi qədər olmuşdu. Bundan əlavə, büdcəyə Slovakiyanın pul xərclərinin müsbət mənada 535,6 milyon avro artması da təsir göstərmişdi.

Slovakiyanın yerli administrasiyalarının hökumətləri də fiskal göstəricilərini 240,5 milyon avroya qədər qaldırmışlar. Buna əsas etibarilə hökumət orqanları tərəfindən kənd yerlərində vergi yığımı göstəricilərinin yaxşılaşması təsir göstərmişdir. Digər tərəfdənsə, özünüidarə orqanlarının göstəriciləri 19 milyon avro məbləğində azalmışdır.

# «Mersedes-Benz» üçün vergi güzəşti

Moskva vilayətinin Solneçnoqorsk rayonunda yerləşən «Mersedes-Benz» - Rusiya zavodu 2019-cu ildən başlayacaq avtomobil istehsalı üçün dövlətdən on il müddətə vergi güzəştləri alacaq. Moskvaətrafı investisiyalar və innovasiyalar naziri Denis Butsayevin bildirdiyinə görə, xüsusi investisiya sazişinin şərtlərinə uyğun olaraq həmin sazişin iştirakçısı ilk mənfəəti götürdüyü zamandan on il müddətinə dövlətdən vergi güzəşti alınacaq. 2025-ci ildən Moskva vilayətinin büdcəsinə aid verginin dərəcəsi 0 faiz, 2026-cı ildən 2028-ci ilə qədər 10 faiz, 2029-cu ildən sonra isə 13,5 faiz təşkil edəcək. Əmlak isə on il müddətinə vergidən azad olunacaq. «Əgər layihədən gələn gəlirlər bütün gəlirlərin 90 faizindən artıq olarsa, verginin federal büdcəyə aid hissəsi də ödənilmir», - Butsilayev bildirmişdir.

«Daimler AG» konserni ilə Moskva vilayətində «Mersedes-Benz» zavodunun inşa edilməsi ilə bağlı saziş 2016-cı ilin iyununda Peterburq iqtisadi forumu çərçivəsində imzalanmışdır. Layihənin dəyəri ilkin hesablamalara göə, 300 milyon avro təşkil edir. «Yesipovo» sənaye parkının ərazisində bütün sənaye siklini əhatə etməklə avtomobillər istehsal ediləcək. Zavodun illik istehsal gücü isə 20 min avtomobildən artıq olacaq. Layihənin həyata keçirilməsi zamanı 1000-dən artıq iş yeri açılacaq.

# Vergi sistemi yeni rəqəmsal iqtisadiyyatla ayaqlaşmır

Avropa Sosial-İqtisadi Komitəsinin mövqeyinə əsasən, Avropa İttifaqının vergi sistemi yeni rəqəmsal iqtisadiyyatla ayaqlaşmır. Vergitutma məsələlərinə həsr olunmuş müzakirələrdə Lids universitetinin vergi hüququ üzrə professoru Rita de la Feria bildirmişdir: «Rəqəmsal iqtisadiyyat artıq ümumi iqtisadiyyatın əsasına çevrilmişdir. Buna görə də biz bugünkü real vəziyyətə uyğun gələn qanunlar qəbul etməliyik. İlk növbədə, bu, müasir dövlətlərin hamısının ziyan çəkdiyi vergi fırıldaqçılığına qarşı olmalıdır».

Debatlar zamanı biznes modellərinin və birgə istehlaka aid iqtisadiyyatların vergiyə cəlb olunması məsələləri də müzakirə edilmişdir. İştirakçılar tərəfindən Avropa İttifaqının mövcud vergi sistemi şəraitində birgə istehlak iqtisadiyyatının aradan götürülə biləcəyi barədə xəbərdarlıq səsləndirilmişdir. Qeyd edilmişdir ki, birgə istehlak iqtisadiyyatı hazırda vətəndaşlar və kiçik biznes təmsilçiləri arasında geniş yayılıb və bu amil nəzərə alınmalıdır.

Qeyd edək ki, Avropa Sosial-İqtisadi Komitəsi Avropa İttifaqının məşvərət orqanıdır.

# Xəbər lenti

**Ukrayna**nın Maliyyə Nazirliyində yaradılmış xüsusi işçi qrup silinmiş kapitala görə vergi üzrə qanun layihəsi üzərində iş aparır. Yeni vergi mənfəət vergisini əvəz edəcək.

**Yunanıstan Kipri**ndə qərarlaşan minlərlə alman şirkətinin vergidən yayındığı barədə məlumat yayılmışdır. Kiprdə qeydiyyata alınmış şirkətlərin və onların bölmələrinin sayının 70 minə çatdığı göstərilir ki, bunların da təxminən 1700-ü Almaniyaya aiddir.

**Braziliya** senatı böyük kapitala malik vətəndaşlardan zənginlik vergisi tutulması ilə bağlı qanun layihəsini müzakirəyə çıxarmışdır. Layihəyə əsasən, gəlir vergisinə cəlb edilən məbləğdən 8 min dəfə artıq (4,8 milyon ABŞ dollarından çox) kapitala malik şəxslər hər il dövlət büdcəsinə öz varidatlarının müəyyən faizi qədər vəsait ödəməlidirlər.

**İspaniya**nın «Real» (Madrid) futbol komandasının hücumçusu, dünyanın ən parlaq futbol «ulduzlarından» biri Kriştianu Ronalduya qarşı vergidən yayınmaya görə irəli sürülmüş məhkəmə iddiasının müddəti bitmək üzrədir. 2015-ci ildə başlanmış məhkəmə təhqiqatı çərçivəsində prokuror iyunun 30-dək şikayət verməsə, iddialar ləğv olunacaq. Mütəxəssislər hesab edirlər ki, Ronalduya bu iddia ilə bağlı cəza verilməyə bilər.

**Rusiya**nın Maliyyə Nazirliyi təklif etmişdir ki, rəsmi qaydada heç yerdə işləməyən, lakin sabit gəlirləri olan şəxslərdən (məsələn, repititorlar, dayələr, ev xidmətçiləri, bağbanlar və s.) vergi tutulması mexanizmi yaradılsın. Təklifə əsasən, bu cür gəlir əldə edən vətəndaşlar vergi orqanına müraciət edərək özünüməşğul vətəndaş statusu almalıdırlar. Əgər vətəndaşlar bu addımı atmasalar, dövlət onları fərdi sahibkarlar kimi vergiyə cəlb etməli olacaq.

**Lüksemburq** öz iqtisadi nüfuzunu qorumaq niyyətindədirsə, ondan xarici şirkətlər üçün qoyulan korporativ vergi sahəsində islahatlar aparmaq tələb oluna bilər. Bu barədə Beynəlxalq Valyuta Fondunun bəyanatında bildirilmişdir.

# Avropanın offşorlardakı itkiləri hesablanıb

Avropa Parlamentinin hazırladığı yeni hesabata əsasən, Avropa İttifaqına daxil olan ölkələr «Panama sənədləri»ndə aşkara çıxarılmış faktlara görə offşor hesablar ucbatından 237 milyard avroyadək itkiyə məruz qalmışdır. Çirkli pulların yuyulması və vergidən yayınma ilə bağlı araşdırmalarla məşğul olan komitəyə 2016-cı ildə ictimaiyyətə açıqlanmış «Panama sənədləri»ndə göstərilən offşor hesablar sayəsində Avropa ölkələrinin nə qədər vəsait itirdiyini araşdırmaq həvalə edilmişdi. Araşdırma ilk növbədə Kipr, Çexiya, Danimarka, Fransa, Almaniya, Polşa, İspaniya və Böyük Britaniyanı əhatə etmişdir.

Araşdırma nəticəsində məlum olmuşdur ki, yalnız adları çəkilən ölkələr üst-üstə 88 milyard avro məbləğində itkiyə məruz qalmışlar. Bundan əlavə, o da hesablanmışdır ki, əgər göstərilən vəsait vergi kimi ölkələrin büdcələrinə daxil olsaydı, 1,5 milyon adamın iş yeri ilə təmin edilməsi mümkün olardı.

# Vergi qanunvericiliyi müzakirə ediləcək

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) növbəti konfransına iştirakçıların qeydiyyatı başlanmışdır. 2017-ci ilin 5-6 iyununda Vaşinqtonda keçiriləcək konfransda OECD-nin beynəlxalq vergi qanunvericiliyi ilə bağlı hazırda irəli sürdüyü və gələcək təşəbbüsləri müzakirə ediləcək.

Tədbir ABŞ-ın Beynəlxalq Biznes Şurası, OECD, eləcə də Biznes üzrə Məşvərət Şurası və OECD yanında Ticarət-Sənaye Məşvərət Komitəsi ilə birlikdə təşkil ediləcək.

Konfrans ABŞ-ın biznes ictimaiyyətinin təmsilçiləri ilə OECD administrasiyasının vergi siyasəti mərkəzi üzvlərinin, eləcə də ABŞ-ın və beynəlxalq vergi standartları çərçivəsində fəaliyyət göstərən digər ölkələrin vergi xidmətlərinin yüksək vəzifəli şəxslərinin görüşünə imkan yaradacaq.

Vergi konfransının gündəliyinə çıxarılacaq mövzulara bunlar daxildir: transfer qiymətqoyma, vergi mübahisələrinin həlli, BEPS standartlarının tətbiqi, eləcə də verginin müəyyənləşdirilməsinin təkmilləşdirilməsi yolları.

## krossvord



**Yuxarıdan aşağı:** 1.İqtisadiyyatda və ya bazarda baş verən dəyişiklikləri ölçmək üçün istifadə edilən kəmiyyət göstəricisi; 2.Bir ölkənin milli pul vahidinin başqa ölkənin milli pul vahidi ilə ifadə olunmuş qiyməti; 3.Sərkərdə, komandir; 4.Balıq növü; 5.İslamda Məhəmməd peyğəmbərin Allahla danışmaq üçün göyə qalxması; 6.Stolüstü oyun; 9.Türkiyə bəstəkarı və müğənnisinin soyadı, «Minik serçe» ləqəbi ilə də tanınır; 13.Müəyyən sahələrdə (məsələn, siyasət, sənət kimi) fəaliyyət göstərən insanların populyarlaşmaq naminə məqsədyönlü şəkildə formalaşdırılan obrazı. Zahiri görkəm; 15.Nazik bağırsağın iltihabı; 16.İçində od qalayıb, ət, toyuq, balıq və s. bişirmək üçün istifadə edilən xüsusi ocaq növü; 17.Atlantik okeanı sahilində sahil şəhəri; 18.Aylardan biri; 20.Keçmişdə insanların necə yaşadıqlarını, onların həyatında hansı hadisələrin baş verdiyini, həyatlarının necə və nə cür dəyişib indiki şəkilə düşdüyünü öyrənən ictimai elm sahəsi; 21.Cərəyan şiddətinin vahidi. **Soldan sağa:** 1.Orqanizmin xəstəliyə yoluxmamaq üçün müqavimət qabiliyyəti; 5.Fransanın cənubunda çay; 7.Tərtibçi, rəssam; 8.Kimyəvi element; 10.Türkiyə müğənnisinin adı; 11.Azərbaycan xalq rəqsi; 12.Dramaturq, aktyor, 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar artistinin adı. «Qayınana» komediyasının libretto müəllifi; 14.Amerika romantizminin ilk görkəmli nümayəndələrindən biri. «Sonuncu mogikan» əsəri yaradıcılığının zirvəsi hesab olunur; 19.Teatr tamaşalarında və kinoda rol ifadə edən qadın artist; 21.Müəssisənin sahib olduğu bütün maddi mülkiyyəti əhatə edən anlayış, mühasibat termini; 22.Rəng; 23.Karton və ya kağızdan hazırlanan, rəsm, fotoşəkil və ya qravüranı yerləşdirmək üçün nəzərdə tutulan çərçivə; 24.Azərbaycanın Kəlbəcər rayonu ərazisində Qanlıkənd yaxınlığında yerləşən XIII-XIV əsrlərə aid istehkam tipli qala; 25.Müəyyən bir sahədə üstünlük təşkil edən vəzifə.



Kəlbəcər rayonu ərazisində Qanlıkənd yaxınlığında yerləşən XIII-XIV əsrlərə aid istehkam tipli qala

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Vivari; 2.Siyaqut; 3.Orman; 4.Sonata; 5.Minsk; 6.Turnir; 9.Ərik; 13.Elen Kuragina *(Bezuxova)*; 15.Paritet; 16.Mayqıl; 17.Oklend; 18.Qarnir; 20.Akson; 21.Mayak. **Soldan sağa:** 1.Viskonsin; 5.Mat; 7.Vayominq; 8.Enqr *(Jan Oqüst Dominik)*; 10.Reqin; 11.Turukki; 12.Atlet; 14.Okapi; 19.Arabesk; 21.Marka; 22.Qüsl; 23.Felyeton; 24.Lan; 25.İndikator.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

BAKU 2017 4th Islamic Solidarity Games

# Türkiyə və Azərbaycan şəksiz liderdir

**IV İslam Həmrəyliyi Oyunlarının dördüncü gününün nəticələrinə əsasən, Azərbaycan qazandığı medalların sayına görə ikinci yerdədir. Komandamızın aktivində 33 qızıl, 23 gümüş və 12 bürünc medal var. Türkiyə millisi 35 qızıl, 31 gümüş və 26 bürünc medalla birinci pillədə qərarlaşıb. Üçüncü yeri isə 6 qızıl, 6 gümüş və 18 bürünc medalla Özbəkistan tutur.**
**Azərbaycana ilk qızıl medalı kişi güllə atıcıları arasında tapançadan 25 metr məsafəyə atəşaçma yarışlarında qalib gələn idmançımız Ruslan Lunev qazandıraraq tarixə düşüb. Ardınca isə bir-birinin ardınca uğurlu çıxışları ilə yadda qalan idmançılarımız yarışlarda favorit olduqlarını sübut etməyə başlayıblar. Karate, cüdo, bədii gimnastika, güllə atıcılığı və digər idman növlərində öz ustalıqlarını meydana qoyan atletlərimiz əsas rəqibləri olan Türkiyə millisi ilə ciddi rəqabət aparırlar.**

| Reytinq | Ölkə | Q | G | B | |
|---|---|---|---|---|---|
| 1 | Türkiyə | 35 | 31 | 27 | 93 |
| 2 | Azərbaycan | 34 | 23 | 13 | 70 |
| 3 | İran | 7 | 11 | 12 | 30 |
| 4 | Özbəkistan | 6 | 6 | 18 | 30 |
| 5 | İndoneziya | 5 | 13 | 14 | 32 |
| 6 | Əlcəzair | 4 | 9 | 11 | 24 |
| 7 | Misir | 4 | 3 | 5 | 12 |
| 8 | İordaniya | 3 | 0 | 2 | 5 |
| 9 | Türkmənistan | 1 | 2 | 2 | 5 |
| 10 | Qətər | 1 | 1 | 4 | 6 |
| 11 | İraq | 1 | 1 | 1 | 3 |
| 12 | Banqladeş | 1 | 1 | 0 | 2 |
| 13 | Qırğızıstan | 1 | 0 | 3 | 4 |
| 13 | Tunis | 1 | 0 | 3 | 4 |
| 15 | Səudiyyə Ərəbistanı | 1 | 0 | 2 | 3 |
| 16 | Pakistan | 0 | 2 | 2 | 4 |
| 17 | Oman | 0 | 1 | 2 | 3 |
| 17 | Suriya Ərəb Respublikası | 0 | 1 | 2 | 3 |
| 19 | Qazaxıstan | 0 | 0 | 2 | 2 |
| 20 | Fil Dişi Sahili | 0 | 0 | 1 | 1 |
| 20 | Kamerun | 0 | 0 | 1 | 1 |
| 20 | Livan | 0 | 0 | 1 | 1 |
| 20 | Mərakeş | 0 | 0 | 1 | 1 |
| 20 | Birləşmiş Ərəb Əmirliyi | 0 | 0 | 1 | 1 |

# Ölkə çempionları müəyyənləşib

Azərbaycan Velosiped İdmanı Federasiyası və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Xızıda velosiped idmanının şose növü üzrə Azərbaycan çempionatı keçirilib. Yarışda Elit kateqoriyası üzrə yeni ölkə çempionları müəyyənləşib.



Gözlənildiyi kimi, medalları ölkəmizin «Synergy Baku» kontinental komandasının heyətində çıxış edən velosipedçilər qazanıblar. 30 km məsafəyə fərdi ötüşmədə Elit yığma komandamzın üzvü, apreldə təşkil olunmuş Mərakeş Turunun 7-ci mərhələsinin qalibi Elçin Əsədov 40 dəqiqə 50 saniyə göstərici ilə ardıcıl 5-ci dəfə Azərbaycan çempionu olub. U-23 yığmamızın üzvləri Elgün Əlizadə və Samir Cəbrayılov qalibdən müvafiq olaraq 2 dəqiqə, 15 saniyə və 2 dəqiqə, 39 saniyə geri qalmaqla 2-3-cü yerləri tutublar.

112 km məsafəyə qrup ötüşməsində isə Elit yığma komandamzın velosipedçisi, «Tour d'Azerbaidjan-2017» veloturunun lider və ən yaxşı dağ velosipedçisi köynəyini qazanmış Kiril Pozdnyakov ən yüksək nəticə göstərib - 3 saat 2 dəqiqə 35 saniyə. Fərdi ötüşmədə 2-ci olan Elgün Əlizadə bu növdə də gümüş qazanıb - 3 saat 4 dəqiqə 29 saniyə. 2-ci yerin sahibinə cəmi 1 saniyə uduzan U-23 yığmamızın digər üzvü Musa Mikayılzadə isə 3-cü olub.

mozaika

təbiət

## Xoşbəxtlik çiçəyi...

Anturium çox şıltaq və bahalı otaq bitkisidir. Onu bəzən «odlu dil» və ya «flaminqo gülü» adlandırırlar, vətəni Mərkəzi və Cənubi Amerikanın tropik əraziləri hesab olunur. Digər tropik bitkilər kimi, anturium da xüsusi şərait və qulluq tələb edir.

Bəzi xalqların anturiumu «kişi xoşbəxtliyi» adlandırması səbəbsiz deyil. Kolumbiyanın tropik rayonlarında onun çiçəklərini əsl bal ayı rəmzi hesab edirlər. Yerli sakinlərin inancına görə, bitki yeni ailə quranlara xoşbəxtlik gətirir. Evliliyin ilk ayı otağı anturiumla bəzəmək düşərli hesab edilir.



Zərifliyinə görə, floristikada ondan hədiyyələrin bəzənməsində istifadə olunur. Anturium güldanda suyun içərisində dörd həftəyə qədər təravətli qalır. O, əhval-ruhiyyəyə müsbət təsir edərək gücü artırır, yorğunluğu azaldır və gümrahlıq bəxş edir. Ona yaxşı qulluq edəndə yazdan yaya qədər çiçəkləyir. Yarpaqlarının uzunluğu 30-40 santimetrə qədər olur. Tünd yaşıl rəngli sərt yarpaqları ürək və ox şəklindədir. Onun çiçəklərinin özünəməxsus özəlliyi və qəribə forması var. Rəngləri qırmızı, ağ və ya ləkəli olur. Çiçəklərinin diametri 10-20 santimetrə çatır. Otaq şəraitində anturium 2-3 ildən çox yaşayır, sonra yarpaqlarını tökməyə başlayır.

Bir çox bitkilərdə olduğu kimi, anturium da qış fəslində dincəlir. Həmin fasilədə ona göstərilən qulluq bir qədər azalsa da, torpağının qurumasına yol verməmək, dibçəyinin isə keramikadan deyil, plastmasdan olmasına çalışmaq lazımdır.

incəsənət

## Tullantıdan... sənətə

Paytaxtda sakinlərin zibil yeşiklərinə atdığı tullantılardan təkrar istehsal üçün xammal kimi istifadə olunur və onun yandırılması nəticəsində elektrik enerjisi əldə edilir. Qala qəsəbəsindəki «Tullantıdan sənətə» muzeyi isə ondan hətta sənət əsərləri yaratmağın mümkünlüyünü göstərir. İki ildir fəaliyyət göstərən muzeydə 30-dan çox ölkədən 120-dən artıq sənət əsəri nümayiş etdirilir və ziyarətçilər tullantılardan hazırlanan müxtəlif əsərlərlə tanış olurlar.

«Təmiz Şəhər» ASC-nin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Elmar Məlikovun bildirdiyinə görə, hələ yeddi il bundan əvvəl Qala qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə qurumun «Təmiz Qala» adlı pilot layihəsi çərçivəsində «Tullantıdan sənətə» sərgisi təşkil edilirdi. Həmin layihəyə olan böyük maraq eyniadlı muzeyin yaranmasına səbəb olub. 2012-ci ildən etibarən isə muzeydə beynəlxalq sərgi təşkil edilir. Sonuncu sərgi ötən ilin oktyabrında Heydər Əliyev Fondunun təşəbbüsü, «Təmiz Şəhər» ASC-nin təşkilatçılığı, «IDEA» İctimai Birliyi, «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və «Q Gallery» incəsənət qalereyasının dəstəyi ilə keçirilib. Məişət tullantıları və lazımsız əşyalardan istifadə edilməklə hazırlanmış sənət əsərlərinin təqdim edildiyi sərgidə 8 ölkədən 25 incəsənət nümayəndəsinin əl işləri nümayiş olunub. Sərginin keçirildiyi 5 ildə «Tullantıdan sənətə» sərgisində 30 ölkədən 80-dən çox sənət adamı iştirak edib. Əsas məqsəd əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, onları bəzən lazımsız hesab etdikləri əşyaları düşünmədən zibil qutularına atmaqdan çəkindirməkdir. Burada yararsız hesab edilərək atılmış əşyalar, tullantı materialları sənətkarların əllərində «ikinci həyat» tapır.




Muzeyin 360 dərəcəlik virtual videosu çəkilib və onun yaxın günlərdə keçiriləcək təqdimatından sonra istifadəçilər virtual olaraq muzeyə səyahət edə biləcəklər.

ekologiya

## Radiasiyadan qoruyan qidalar

Mobil telefon, WiFi, kompüter kimi texnologiyalarla təmasda olan hər kəs elektromaqnit və radiasiya şüalanmasına məruz qalır. Alimlər uzun müddət davam edən hətta çox kiçik dozalı şüalanmaların orqanizmə xüsusilə ziyanlı təsir göstərərək hüceyrələrdə genetik dəyişikliklərə, bədxassəli törəmələrin inkişafına, maddələr mübadiləsi pozğunluğuna, erkən qocalmaya, ömrün qısalmasına səbəb olduğunu söyləyirlər. Radiasiyadan qorunmağın ən əsas yolu qida rasionuna fikir verməkdir.

Radiasiyadan qoruyan ən yaxşı qidalar tərkibində iri və kobud toxumalar olan məhsullardır. Onlar kimyəvi radioaktiv maddələrlə birləşərək yeni toksiki maddələr əmələ gətirir və həmin maddələr orqanizmdən asanlıqla xaric olur. Radionukleotidlərdən uzaq olmaq üçün qida rasionuna mütləq düyü, kök və turp əlavə etmək lazımdır. Meyvə və tərəvəz təmiz yuyulmalı və 0,5 santimetr dərinliyində soyulmalıdır. Kələm üçqat soyulur, çünki ağır metallar və pestisidlər üst qatda daha çox toplanır. Tərəvəzlərdə həmin toksinlər daha çox özəkdə toplanır. Radioaktiv maddələrin sorulmasına çuğundur, ərik qurusu, qoz və qabıqlı kartof daha çox mane olur. Həmçinin qara qarağat, nar, üzüm, cəfəri, sarımsaq, soğan və dəniz kələmi radioaktiv maddələrin sorulmasını zəiflədir.

Qida rasionuna süd, kəsmik, xama və yağ əlavə edilməsi radioaktiv stronsiumun sorulmasını azaldır. Süd məhsullarının tərkibində olan metionun ət və balığın tərkibində çox olur, orqanizmdən radioelementlərin xaric olunmasını asanlaşdırır. Mal ətinin tərkibində isə radionukleotidlər çoxdur. Kotlet və ət farşından imtina etmək lazımdır, çünki onları qızardanda radioonukleotidlər həmin məhsulların tərkibində qalır.



**Radiasiyadan qorunmaq üçün reseptlər:**

* Kömür su ilə qatılaraq hər 15 dəqiqədən bir 2 xörək qaşığı içilir, gün ərzində 2 stəkan qəbul edilir.
* 1 çay qaşığı tozağacı göbələyinin tozu 1 stəkan qaynar suda dəmlənir, üzərinə 1 çimdik soda əlavə edilir, gündə üç dəfə yeməkarası içilir.
* 3 litrlik balonun 1/3 hissəsi buğda qabığı, qalan hissəsi isə itburnu dəmləməsi İlə doldurulur, 2 saat dəmlənilərək süzülür, alınan məhlul gün ərzində istənilən qədər içilir.
* 1 ay ərzində 1 çay qaşığı çaytikanı yağı gündə üç dəfə qəbul edilir. Yağı çaytikanı bitkisinin yarpağı və cavan zoğlarının dəmləməsi ilə də əvəz etmək olar.

## İdmançılar üçün ən faydalı içki

Mütəxəssislər bildirirlər ki, idman məşğələləri zamanı bütün içkilər eyni dərəcədə səmərəli deyildir. Alimlər hər bir içkinin orqanizmə təsirini təhlil edərək bu qənaətə gəliblər ki, ən faydalı içki adi sudur. İdmanla məşğul olanlar məhz su içməlidirlər.

İdman təbabəti sahəsində tədqiqat aparan mütəxəssislərin sözlərinə görə, şəkər və duz əlavə edilmiş içkilər bir çox idmançılar üçün vacibdir. Bu içkilər məşq zamanı itirilmiş enerjini qismən bərpa edir. Amma onların da öz fəsadları var, çünki şəkər əlavə edilmiş içki artıq çəkiyə səbəb olur, dişlərin quruluşunu təhlükə altına qoyur.

Enerjili içkilərin tərkibində kofein var. Bu da aritmiya, mədə pozğunluğu və baş ağrıları əmələ gətirir. Buna görə də idmançı üçün ən yaxşı vasitə sudur - orqanizmi bərpa edir və heç bir fəsad törətmir.



**Müdriklər deyib ki...**

***«Siz öz əlinizlə təslim etməyincə heç kim şəxsiyyətinizə olan hörməti əlinizdən ala bilməz».***

***Mahatma Qandi (1869-1948)***

